QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 070 (6270) 22 aprel 2021-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Prezidentin Hacıqabula səfəri regionların inkişafına olan diqqətin əyani təzahürüdür



## Prezident İlham Əliyev: “Böyük aqroparkların yaradılmasının əsas məqsədi ərzaq təhlükəsizliyini təmin etməkdir”

## Əli Əhmədov İCAPP iclasında Azərbaycanın qələbəsindən danışıb



Yeni Azərbaycan Partiyası sədrinin müavini, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov aprelin 21-də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (İCAPP) Daimi Komitəsinin 35-ci iclasında iştirak edib. SİA-nın məlumatına görə, videokonfrans formatında keçirilən iclasda açılış nitqi ilə çıxış edən...

Bax 3

## Dmitri Savelyev: “Prezident İlham Əliyevin göstərdiyi nümunələr Azərbaycanın sülhsevərliyinə dəlalət edir”

Bax 3



Azərbaycan Prezidenti İlham Əliyevin “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” mövzusunda beynəlxalq konfransda çıxışı Azərbaycan liderinin müdrikliyini və parlaq diplomatik bacarıqlarını növbəti...

## Bəhruz Quliyev: “Cəmil Həsənli kimilər alətli rolunda çıxış edirlər”

Bax 6



## Daha 12 qazimiz “YAŞAT” Fondu tərəfindən Türkiyəyə göndərilib

Bax 6



Ağır yaralanan daha 12 qazimiz “YAŞAT” Fondu tərəfindən Türkiyəyə göndərilib. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə...

Bax 4



## Ermənilərlə Rusiya SM-ı arasında qarşıdurmalar artır

## USAİD rəhbərinin qatı ermənipərəst olduğu təsdiqləndi: Bəs Türk dünyasının reaksiyası?



## “Ermənistan XİN-i eşitdiklərini istədiyi şəkildə yozaraq təqdim etmək istəyirsə, bu, artıq onların mənfur niyyətinin göstəricisidir”



Bax 7

## Mehridə Paşinyanın gəlişinə qarşı etiraz aksiyası keçirilib



Bax 13

## “İnsanlar peyvənd olunmasa...”



Bax 11

# Prezidentin Hacıqabula səfəri regionların inkişafına olan diqqətin əyani təzahürüdür

## *Prezident İlham Əliyev: "Böyük aqroparkların yaradılmasının əsas məqsədi ərzaq təhlükəsizliyini təmin etməkdir"*

***Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu istiqamətdə qəbul edilən və yüksək səviyyədə gerçəkləşdirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası respublikada qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin, sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artırılmasına, yoxsulluq səviyyəsinin azaldılmasına güclü təkan verib. Bir sözlə, son 18 il ərzində dövlət başçısı kimi regionların sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işlər bölgələrin simasını büsbütün dəyişib.***





### Bölgələrə hər səfər yeni uğurların təməli və müjdəsidir

Məhz aprelin 20-də Prezident İlham Əliyevin Hacıqabul rayonuna səfərini rayonun yeni uğurların təməlinin qoyulması kimi dəyərləndirilməlidir. Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsi zamanı səfər təəssüratları haqqında məlumat verərək bildirib ki, təəssüratlar çox müsbətdir: "Təəssüratlar çox müsbətdir. Hacıqabul rayonunda həyata keçirdiyimiz işlərin nəticələrini görürük. Vaxtilə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Bu proqram çərçivəsində, o cümlədən Hacıqabul rayonunda böyük işlər görülmüşdür. Bütün ölkə üzrə böyük işlər görülmüşdür. Hacıqabulda bu işlər artıq son mərhələdədir. İnfrastruktur layihələrinə gəldikdə, deyə bilərəm ki, Hacıqabulda qazlaşdırmanın səviyyəsi yüz faizə çatıbdır. Rayon tam qazlaşdırılıb. Elektrik enerjisi ilə təchizat xeyli yaxşılaşıb və bu gün artıq yeni yarımstansiyanın açılışı da bunu göstərir. Çünki tələbat artıb. İçməli su layihəsi hələ 2013-cü ildə icra edilmişdir və Hacıqabul şəhəri içməli su ilə təmin olundu. Kənd yollarının çəkilişinə gəldikdə isə, bu yolların 75 faizi yenidən çəkilib. Eyni zamanda, rayonda bir çox sosial layihələr icra edilmişdir. Xəstəxana, mədəniyyət obyektləri, 22 məktəb tikilib və əsaslı şəkildə təmir edilib. Yəni, bütün bunlar insanlar üçün gözəl şərait yaradır. İnsanların yaşayış səviyyəsi yaxşılaşıb. Biznes üçün şərait yaxşılaşıb. Bütövlükdə bu gün açılışında iştirak etdiyim obyektlər rayonun gələcək iqtisadi potensialını böyük dərəcədə gücləndirəcəkdir".

"Hacıqabulda bu aqroparkların yaradılması bizim siyasətimizin uğurlu olmasından xəbər verir"

Dövlət başçısı müsahibə zamanı rayonda iki aqroparkın fəaliyyəti ilə tanış olduğunu və böyük aqroparkların yaradılmasında əsas məqsədi ərzaq təhlükəsizliyini təmin etməkdən ibarət olduğunu bildirib: "Bu, əlbəttə ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində aparılan islahatların tərkib hissəsidir. Böyük aqroparkların yaradılmasının əsas məqsədi ərzaq təhlükəsizliyini təmin etməkdir. Təbii ki, eyni zamanda, kiçik fermer təsərrüfatlarının inkişafı ilə bağlı praktiki işlər görülür. Bu iki istiqamət üzrə kənd təsərrüfatı inkişaf edir. Aqroparkların üstünlüyü ondan ibarətdir ki, burada daha bol məhsul yetişdirilir və məhsuldarlıq da daha yüksəkdir. Bu, təbiidir, çünki burada ən müasir aqrotexniki tədbirlər tətbiq olunur".

Dövlət başçısı onu da vurğulayıb ki, Hacıqabul rayonu əhali baxımından o qədər də böyük olmasa da, burada iki böyük aqropark fəaliyyət göstərir və yüzlərlə yerli sakin bu aqroparklarda işlə təmin edilibdir: "Misal üçün, torpağın münbitliyi baxımından Hacıqabul ölkəmizin ən qabaqcıl rayonu deyil. Torpağın keyfiyyəti digər rayonlarla müqayisədə daha aşağıdır. Ancaq, buna baxmayaraq, məhz Hacıqabulda bu aqroparkların yaradılması bizim siyasətimizin uğurlu olmasından xəbər verir. Çünki ən ağır yerlərdən biri də Hacıqabuldur. Mənə bu gün hər iki aqroparkda verilən məlumata görə, suvarılan sahələrdə minlərlə hektar pivot altındadır. Burada taxılçılıqdan məhsuldarlıq hektardan 60 sentnerdir, yəni, altı ton. Müqayisə üçün deyə bilərəm ki, Hacıqabul rayonunda məhsuldarlıq hektardan otuz sentnerdir. Ölkə üzrə təqribən otuz sentnerdən bir qədər çoxdur. Ancaq iri fermer təsərrüfatlarında məhsuldarlıq 60 sentnerdir, iki dəfə çoxdur. Əgər bu yanaşma bizim bütün böyük təsərrüfatlarımızda və eyni zamanda, kiçik fermer təsərrüfatlarında tətbiq olunarsa, onda biz ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı işlərimizi tamamlamış olacağıq. Burada, eyni zamanda, digər məhsullar da yetişdirilir. Bu təsərrüfatda, bu aqroparkda, eyni zamanda, heyvandarlıq da inkişaf etdirilir. İki min baş cins inək gətirilibdir. Onların sayı getdikcə beş minə çatacaq. Burada sağılan süd yaxınlıqda yerləşən Kürdəmir süd zavoduna göndərilir. Beləliklə, südlə daxili təminat daha yüksək faizlərə çatacaq və ümid edirəm ki, yaxın bir neçə il ərzində Azərbaycan özünü südlə tam təmin edəcək".

Dövlət başçısı, həmçinin bütövlükdə əlliyə yaxın aqroparkın yaradılmasının da nəzərdə tutulduğunu deyib və bildirib ki, onlardan bir çoxu artıq fəaliyyətdədir: "Ümumi investisiya qoyuluşu iki milyard manatdan çoxdur. Əgər biz bu işləri özəl sektorla birlikdə görməsəydik, bu investisiyaları heç kim qoymazdı. Çünki dövlət həm güzəştli şərtlərlə müəyyən məbləğdə kreditlər verir, eyni zamanda, infrastruktur layihələri həyata keçirir və özəl sektor üçün şərait yaradır. Özəl sektor isə bu vəsaiti təşkil edir. Son bir neçə il ərzində kənd təsərrüfatına qoyulan iki milyard manat vəsait çox böyük vəsaitdir".

**"Altı il bundan əvvəl mən bu məsələ ilə maraqlananda pambıqçılıq demək olar ki, batırdı, cəmi 30-35 min ton yığılmışdı. Keçən il isə 336 min ton, 10 dəfə çox"**

Prezident İlham Əliyev Hacıqabul rayonuna səfəri zamanı rayonunun Meyniman kəndinin ərazisində fermer Elşən Xəlilovun 10 hektarlıq pambıq tarlası ilə tanış olub. Dövlətimizin başçısı əkin sahəsində pambıq səpininə start verilməsi prosesini izləyib. Pambıqçılıqda əvvəlki illərlə məhsuldarlığı müqayisə edən Prezident İlham Əliyev bildirib: "Altı il bundan əvvəl mən bu məsələ ilə maraqlananda pambıqçılıq demək olar ki, batırdı, cəmi 30-35 min ton yığılmışdı. Keçən il isə 336 min ton, 10 dəfə çox".

Qeyd edək ki, 2015-ci ildən dövlətimizin başçısının kənd təsərrüfatının bir çox sahələrinə xüsusi yanaşmasının şahidi olduq. Nəticədə məhsuldarlıq dəfələrlə artdı, xüsusi stimullaşdırıcı tədbirlər görüldü. Faktların müqayisəli təhlili onu deməyə əsas verir ki, Azərbaycan üçün ənənəvi sayılan pambıqçılıq dirçəlib. Ölkədə hər hektardan məhsuldarlığın 30 sentnerdən yuxarı olduğu cəmi 3 il qeydə alınıb. Konseptual yanaşmanın tətbiq olunduğu 2015-ci ildə bu rəqəm 2 dəfə aşağı idi. Görülən kompleks tədbirlər artıq tarixi maksimuma yenidən çatmağı şərtləndirib. Ötən il hər hektardan məhsuldarlıq 33,6 sentner təşkil edib. Beləliklə, dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addım olmaqla, ölkəmizin daha da inkişaf etməsinə, sosial rifahın yüksək səviyyəyə çatdırılmasına və iqtisadiyyatımızın güclənməsinə geniş imkanlar yaradır.

**RƏFİQƏ KAMALQIZI**

# Əli Əhmədov İCAPP iclasında Azərbaycanın qələbəsindən danışıb



Yeni Azərbaycan Partiyası sədrinin müavini, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov aprelin 21-də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (İCAPP) Daimi Komitəsinin 35-ci iclasında iştirak edib. SİA-nın məlumatına görə, videokonfrans formatında keçirilən iclasda açılış nitqi ilə çıxış edən Koreya Respublikasının Xarici İşlər naziri, İCAPP Daimi Komitəsinin həmsədri Çunq Euiyonq İCAPP-ın fəaliyyətinə göstərdiyi fəal dəstəyə görə Yeni Azərbaycan Partiyasına xüsusi təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən YAP sədrinin müavini Əli Əhmədov ötən il 44 günlük müharibə nəticəsində Azərbaycanın öz ərazilərini işğaldan azad etdiyini, bölgədə sülh və əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğulayıb. O, həmçinin, bu ilin sonlarında Təhlükəsizlik və Əməkdaşlıq Naminə Xüsusi Konfransın keçirilməsi barədə YAP-ın təşəbbüsünün dəstəklənməsi və İCAPP-ın iş planına salınmasına görə quruma təşəkkürünü bildirib. Pandemiya şəraitində qurumun faliyyətini yüksək qiymətləndirən YAP təmsilçisi sonda İCAPP üzvlərini Bakıda keçiriləcək tədbirdə fəal iştiraka dəvət edib.

# Dmitri Savelyev: "Prezident İlham Əliyevin göstərdiyi nümunələr Azərbaycanın sülhsevərliyinə dəlalət edir"



***Azərbaycan Prezidenti İlham Əliyevin "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda çıxışı Azərbaycan liderinin müdrikliyini və parlaq diplomatik bacarıqlarını növbəti dəfə nümayiş etdirdi. Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev bu fikirləri AZƏRTAC-ın müxbiri ilə söhbətində səsləndirib.***

Deputat deyib: "Əlamətdar haldır ki, Prezident hərbi mövzuya toxunarkən işğaldan azad olunmuş ərazilərin bərpası və Azərbaycan iqtisadiyyatına reinteqrasiyası, regionda sülh və sabitlik məsələlərinə üstünlük verirdi. Beləliklə, Azərbaycan Prezidenti öz ölkəsinin münaqişəni dinc yolla nizamlamağa tərəfdar olmasını təsdiqlədi və bunu strateji baxımdan çox səmərəli şəkildə etdi".

D.Savelyev təəssüflə vurğulayıb ki, Qarabağ ərazisində onilliklər boyu davam etmiş işğal və hərbi əməliyyatlar nəticəsində dağıdılmış şəhərlər, minalanmış sahələr, işğal edilmiş torpaqlarda Azərbaycan mədəniyyətini məhv etmək cəhdləri şəklində dəhşətli izlər qalıb. Buna görə də normal həyatın bərpa edilməsi üçün bütün xalqın böyük səyi və sanballı investisiyalar tələb olunur.

Rusiyalı deputat daha sonra deyib: "Lakin bu vəziyyətin müsbət tərəfi də var: işğaldan azad edilmiş ərazilər Azərbaycan iqtisadiyyatı üçün böyük resursdur. Bu gün Azərbaycan keçmiş düşməninə birtərəfli qaydada mehriban qonşu kimi kömək əlini uzadır, Ermənistan rəhbərliyi isə hər hansı minimal addımlardan çəkinmək üçün müxtəlif bəhanələr gətirir. Hərçənd, bu mövqe erməni xalqının istəklərinə tamamilə ziddir. Prezident İlham Heydər oğlu barışıq prosesinə yönəlmiş fəaliyyət nümunələri göstərdi. Bu nümunələr Azərbaycanın sülhsevərliyini və konstruktiv səylərini nümayiş etdirir. Lakin Şərqdə belə bir müdrik kəlam var: tək əldən səs çıxmaz, yəni əgər Ermənistanın hakimiyyət orqanları tərəfindən müvafiq sülh təşəbbüsləri olmasa, regionda nizamlama prosesi daha da ləngiyəcək".

# "Ermənistan XİN-i eşitdiklərini istədiyi şəkildə yozaraq təqdim etmək istəyirsə, bu, artıq onların mənfur niyyətinin göstəricisidir"

***"Azərbaycan Respublikasının Prezidenti hər zaman olduğu kimi, fikirlərini kifayət qədər aydın və konkret şəkildə ifadə edib. Əgər Ermənistan XİN-i eşitdiklərini istədiyi şəkildə yozaraq təqdim etmək istəyirsə, bu artıq onların mənfur niyyətinin göstəricisidir." Bu sözləri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan XİN-in Azərbaycan Respublikasının Prezidentinin Ermənistana qarşı güc tətbiq etmək təhdidi ilə çıxış etdiyini iddia edən şərh ilə bağlı KİV-in sualına cavabında bildirib.***



Leyla Abdullayeva deyib: "Dövlətimizin başçısının fikirlərini təfsir etmək istəyənlərin diqqətinə çatdırmaq istərdik ki, Azərbaycan Prezidenti 20 aprel tarixli müsahibəsində Azərbaycana qarşı Ermənistanda baş qaldıra biləcək revanşizmdən və ərazi bütövlüyümüzə ola biləcək təhdidlərdən bəhs edib və "əgər mümkün təhdidi təsbit etsək, onu məhv edəcəyik... çünki bu, milli müdafiədir, milli təhlükəsizlik məsələsidir", - deyə vurğulayıb. Bu isə Ermənistan XİN-in iddia etdiyi kimi, Ermənistanın ərazi bütövlüyünə təhdid deyil, əksinə, Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə ola biləcək hər hansı təhdidi cavablandırmaq qətiyyətimizin göstəricisidir.

Xatırlatmaq istərdim ki, dövlət başçısı müsahibəsində, eyni zamanda, Azərbaycanın əməkdaşlığa hazır olduğunu söyləyib, Ermənistanın azərbaycanlılara qarşı dövlət səviyyəsində törətdiyi soyqırımı və tarixi, mədəni, dini abidələrimizin dağıdılmasına rəğmən bizim gələcəyə baxmalı olduğumuzu vurğulayıb.

Dəfələrlə və ən yüksək səviyyədə bəyan edildiyi kimi, Azərbaycan beynəlxalq hüququn prinsipləri, xüsusilə də dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında Ermənistanla münasibətlərin normallaşdırılmasına hazırdır. 2020-ci il noyabrın 10-da və 2021-ci il yanvarın 11-də imzalanmış üçtərəfli bəyanatların icrası da elə məhz buna xidmət edir. Ermənistan isə təəssüf ki, üçtərəfli bəyanatın icrası əvəzinə, yalan və iftira dolu fikirləri ilə həm öz əhalisini zəhərləyir, həm də beynəlxalq ictimaiyyəti yanıltmağa çalışır".

# Almaniya portalı Qarabağın azad olunması ilə yaranan yeni siyasi və iqtisadi reallıqlardan yazıb

***Almaniyanın "nex24.news" portalında Nabi Yücelin müəllifliyi ilə "Dağlıq Qarabağ: Azərbaycan Ermənistanı istismarda günahlandırır" başlıqlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən sonra bölgədə yaranmış yeni vəziyyətdən bəhs olunur.***




Bildirilib ki, Qarabağ uğrunda Ermənistan və Azərbaycan arasında baş vermiş 44 günlük müharibə 2020-ci il noyabrın 10-da sona çatıb və müharibənin nəticəsində bölgədə nəinki yeni siyasi, eləcə də yeni iqtisadi vəziyyət yaranıb. Belə ki, işğalı olunmuş Dağlıq Qarabağ və yeddi ətraf rayon qızıl, mis və digər qiymətli metal resursları ilə zəngindir. Onilliklər boyu bu sənaye sahələrindən əldə olunan gəlirlər faktiki olaraq qondarma "Dağlıq Qarabağ Respublikası" (DQR) ayaqda saxlamağa kömək edib. Qeyd olunub ki, 2019-cu ildə qondarma DQR-in Ümumi Daxili Məhsulunun (ÜDM) 13 faizi bu mədənlərin istismarından əldə edilib. Ermənistan və Dağlıq Qarabağdakı qondarma rejim müxtəlif yollarla xarici şirkətləri işğal altındakı Azərbaycan ərazilərinə qanunsuz olaraq sərmayə qoymağa cəlb ediblər. Bu beynəlxalq konvensiyalara zidd olub. Müharibəyə qədər Azərbaycan hökumətinin icazəsi olmadan işğal olunmuş Azərbaycan ərazilərində 69 xarici şirkət fəaliyyət göstərib. Bunlar əsasən ABŞ, Kanada, Fransa, İsveçrə, Avstraliya, Almaniya və sair ölkələrdən olan şirkətlər olub. Məlumata görə, işğal olunmuş ərazilərin 35 faizi 20 il müddətinə əcnəbilərə və əcnəbi şirkətlərə icarəyə verilib. İşğal altında olan meşələrin 37 faizi isə əcnəbi sahibkarlar tərəfindən idarə olunub.

Azərbaycan illər boyu Ermənistanı mədənlərin qanunsuz istismarını dayandırmağa çağırıb və beynəlxalq ictimaiyyətin bu məsələyə reaksiya verəcəyinə ümid edib. Lakin bu ümidlər nəticəsiz qalıb. Müharibədən sonra ərazilərin işğaldan azad olunması ilə mədənlər yenidən Azərbaycanın nəzarətinə keçib. Azərbaycan Ermənistanı və işğal altında olan ərazilərdə qanunsuz fəaliyyət göstərən şirkətləri istismarda ittiham edir və onlara qarşı beynəlxalq məhkəmədə iddia qaldırmağı planlaşdırır.

# Ermənilərlə Rusiya SM-ı arasında qarşıdurmalar artır

## *Bu, həm də ermənilərin digər millətlərlə birgəyaşayış ənənəsinə sahib ola bilməmələrinin sübutudur*

***Qarabağda, daha dəqiq desək, bölgənin Rusiya sülhməramlılarının (SM) nəzarət etdiyi bölgələrdə ermənilərlə rus SM-ı arasında problemlər sürətlə artmaqdadır. Belə ki, buna olan səbəblərdən biri kimi ermənilərin yaşam tərzlərində, eləcə də sosial-məişət həyatlarında monoetnikliyə üstünlük vermələri ilə bağlı çoxsaylı faktlar göstərilə bilər. Lakin daha bir problem son zamanlar rusiyalı sülhməramlılarla yerli əhali arasında formalaşan məişət münasibətlərinin sonda ağır nəticələrə səbəb olmasıdır. SİA olaraq, bugünlərdə işıqlandırdığımız 25 yaşlı Xankəndi ermənisi Qayane Qrantovna Arzumanyanın Rusiya SM-ı ilə yaşadığı qısa eşq macərasını da sözügedən mövzuya əlavə edə bilərik. Xatırladaq ki, 25 yaşlı erməni qızı Qayane SM-dan hamilə qalıb və rus hərbçisi ortalardan necə deyərlər, itib-yoxa çıxıb.***



Karen Minasian (AFP)

### Qayane Artyomdan hamilə qaldı və sonra...

Qeyd olunduğuna görə, problemin delikantlığı ondan ibarətdir ki, 2021-ci ilin yanvarında erməni qadın Qarabağda Rusiya Federasiyası SM kontingentinin baş leytenantı Artyomla tanış olub. Onun sözlərinə görə, rus və erməni sevgililəri iki həftəyə yaxın müddətdə görüşüblər və sonradan Artyom rabitəyə çıxmayıb. Təqribən bir həftədən sonra Qayane öyrənib ki, o hamilədir və Artyoma bu barədə deyib. Onun sözlərinə görə, rus zabitinin bu xəbərə reaksiyası müsbət olub. Sonradan Qayane Artyomun axtarışına çıxdıqda isə, SM kontingentinin komandanlığı erməni qadına zabitin harada olması barədə heç bir məlumat verməyib. Nəticədə məsələ daha da böyüyüb və hazırda erməni qadın hamiləliyinin 4-cü ayındadır.

### Rusiya SM kontingenti ermənilərə xəbərdarlıq edir - səbəbi?

Onun valideynləri və qohumları müxtəlif orqanlara müraciətlər etsələr də, Artyomun harada olması ilə bağlı heç bir nəticə əldə edə bilməyiblər. İndi Qayanenin qohum-əqrəbaları rus SM-nı ittiham edir, qızlarının cinsi istismara məruz qaldığını iddia edir, eləcə də komandanlıqdan Artyom adlı baş leytenantın tapılaraq məsuliyyətə cəlb olunmasını tələb kimi irəli sürürlər. Rusiya SM kontingenti isə onların bu tələblərini yerinə yetirmir, əksinə, qarşı tərəfi xəbərdar edərək onlara qarşı iftira atdıqlarını bildirir.

Lakin buna baxmayaraq, erməni seqmentlərində qeyd olunur ki, artıq bu kimi bənzər hadisələr Xankəndidə, eləcə də rus sülhməramlılarının xidmət apardıqları digər bölgələrdə bir neçə dəfə yaşanıb. Məsələ yalnız bu kimi faktlarla kifayətlənmir...

### Ermənilər rus sülhməramlılarını özlərinə "xilaskar" adlandırsalar da, gerçəklikdə hər şey tamamilə başqa məcrada inkişaf edir

Misal üçün bu gün bir sıra erməni sosial şəbəkə səhifələri üçtərəfli bəyanat imzalandıqdan sonra Qarabağa geri dönmüş ermənilərin bu dəfə İrəvana deyil, xarici ölkələrə köçmək niyyətində olduqlarını yazırlar. Artıq o da sirr deyil ki, Xankəndidə yaşayan ermənilər yalnız hər gün üzləşdikləri sosial-məişət, işsizlik problemləri ilə deyil, həmçinin Rusiya SM-nın nəzarəti altında yaşamaq istəmədiklərini bildirirlər. Orada danışmaz əmlaklara sahib olan insanlar evlərini, torpaqlarını dəyər-dəyməzinə sataraq tez bir zamanda bu ərazilərdən köçməyi planlaşdırırlar. Düzdür, ermənilər medialarda, digər informasiya resurslarında rus sülhməramlılarını özlərinə "xilaskar" adlandırsalar da, gerçəklikdə hər şey tamamilə başqa məcrada inkişaf edir.

### Ksenofobiya və irqçilik xəstəliyi

Burada isə daha bir faktor ermənilərin monoetnik xalq kimi formalaşmalarıdır. Genetik kodlarında özlərini "ən qədim xalq" kimi zorla dünya ictimaiyyətinə sırıyan ermənilər əslində ciddi və psixiki xəstəliyin daşıyıcıları olduqlarını dərk etməsələr də kənardan bu xalqın özlərindən başqa heç bir milləti bəyənməmədikləri reallığı artıq bir fakta çevrilib. Bu kimi ksenofobiya və irqçilik xəstəliyi dünyanın başqa heç bir xalqında, millətində mövcud deyil. Ona görə də hətta "dünyanın yaradıcıları" olduqlarını iddia edən bu cür xəstə təfəkkürlü tayfanın isə qeyri-millətlərlə yaşamaq əmsalları sıfıra bərabərdir və həmin isbat hazırda da özünü kifayət qədər sübuta yetirməkdədir.

***Rövşən RƏSULOV***

# İtaliya portalı: Azərbaycan İtaliyanın strateji tərəfdaşıdır

İtaliyanın "Inside Over" informasiya portalında "Azərbaycan İtaliyanın strateji tərəfdaşıdır" başlıqlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə ötən həftə ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirak edən italyan politoloq Salvatore Santancelo ilə müsahibə əsasında tərtib edilib.

S.Santancelo müsahibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfransda səsləndirdiyi fikirlər və iki ölkə arasındakı əlaqələrin perspektivləri barədə danışıb. Qeyd edilib ki, Azərbaycan və İtaliya arasında qarşılıqlı münasibətlər mühüm əhəmiyyətə malikdir. Belə ki, Prezident İlham Əliyev konfransdakı çıxışında İtaliya barədə ayrıca olaraq danışdı, münaqişə dövründə İtaliya diplomatiyasının tutduğu mövqeyi yüksək qiymətləndirdi və həmçinin Qarabağın yenidən qurulmasında italyan şirkətlərinin aktiv fəaliyyətinə ümid bəslədiyini vurğuladı.



Azərbaycanın nəyə görə İtaliyanın strateji tərəfdaşı olması sualına aydınlıq gətirən politoloq qeyd edib ki, 2013-cü ildən bəri Azərbaycan İtaliyanı xam neftlə təmin edən iki əsas ölkədən biridir. Əgər təkcə üç ilə nəzər salınsa, o zaman İtaliyanın idxalının praktiki olaraq iki dəfəyədək artdığını görmək mümkündür (2016-cı ildə 2,9 milyard avro və 2019-cu ildə təxminən 5 milyard avro). 2019-cu ildə İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi Azərbaycanın payına düşüb. 2020-ci ildə ticarətin həcmi 6 milyard avroya yüksəlib və bu da Azərbaycanın xarici ticarətinin 18 faizinə bərabərdir. "Trans-Adriatik" qaz boru kəmərinin fəaliyyətə başlaması ilə Azərbaycan və İtaliya arasında əlaqələrin inkişafı üçün daha münbit şərait yaranıb. Əslində bu, iki ölkə arasında əlaqələrin strateji əhəmiyyətini ictimaiyyətə nümayiş etdirən əsas məqamdır.

İtalyan politoloq daha sonra bildirilib ki, siyasi nöqteyi-nəzərdən də İtaliya şübhəsiz ki, Azərbaycanın Avropada ən vacib tərəfdaşıdır. Bununla yanaşı, Bakının əhəmiyyəti və çəkisi İtaliya-Azərbaycan münasibətləri çərçivəsindən kənarda da qiymətləndirilməlidir. Azərbaycan sivilizasiyaların kəsişməsində dayanan, Qərblə Şərq arasında münasibətlərin qurulmasında körpü rolunu oynaya bilən bir ölkədir. S.Santancelo, həmçinin bu mülahizələrə hazırkı geosiyasi gərginliyin mərkəzlərindən biri olan Qara dəniz regionunda münasibətlərin sabitləşməsində Azərbaycanın oynaya biləcəyi roldan danışıb. Qeyd edib ki, bu sabitləşmədə yol təkcə Ankara ilə deyil, həm də Kiyev və Tbilisi ilə sıx əlaqələrə malik Bakıdan keçə bilər.

Məqalənin sonunda S.Santancelonun İtaliyanın xarici siyasətdə prioritet istiqamətləri, geosiyasi müstəvidə müasir çağırışlar və ölkəsinin tutmalı olduğu mövqe barədə fikirləri də yer alıb.

# Mehridə Paşinyanın gəlişinə qarşı etiraz aksiyası keçirilib

***Ermənistanın Sünik bölgəsində baş nazir Nikol Paşinyanın bölgəyə səfərinə qarşı çıxan etirazçılar, yolları, küçələri bağlayıblar. SİA xəbər verir ki, bu barədə RİA Novosti para.tv onlayn nəşrinə istinadən məlumat yayıb.***



Məlumatda qeyd olunur ki, etirazçılar baş naziri xəyanətdə günahlandıran şüarlar səsləndirirlər. Bəzən kütləni cilovlamağa çalışan polislə etirazçılar arasında qarşıdurmalar da olur. Baş nazirin kortejinə hələ də yol açılmayıb.

Sünik bölgəsindəki sərhəd yaşayış məntəqələrinin sakinləri Azərbaycan ordusunun yeni döyüş postlarının yerləşdirilməsinin onların təhlükəsizliyini təhdid etdiyini düşünürlər. Paşinyan isə bəyan edib ki, Azərbaycanla sərhəddə baş verən proseslər demarkasiya və delimitasiya hesab edilə bilməz, yalnız müəyyən sərhəd məntəqələrinin yerini göstərir.

Ermənistan Müdafiə Nazirliyi də öz növbəsində, rus sərhədçilərinin Sünik bölgəsindəki yolun problemli hissələrində təhlükəsizliyi təmin edəcəyini bildirib. Daha sonra, Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin cənubundakı Mehri şəhərini tərk edib, hansıki burada da nümayişçilər onun getdiyi yolun keçidini bağlamağa çalışıblar. Mühafizəçilər, polis və Milli Təhlükəsizlik Xidmətinin müşayiəti ilə Paşinyan şəhərin küçələrində gəzmək qərarına gəlib. Baş nazirin yolunun üstündəki küçələri bağlayan etirazçılar təhqiramiz şüarlar səsləndirərək onu müşayiət ediblər. Belə bir şəraitdə Paşinyanın maşına minərək oradan uzaqlaşmaqdan başqa çarəsi qalmayıb.

# "Style International": Azərbaycan Prezidenti Qarabağın ölkənin iqtisadiyyatı və maddi-texniki təminatında mühüm yer tutacağını bildirib

***Bu gün aylıq "Style International" qəzetinin rəqəmsal versiyası olan İspan nəşrində AZƏRTAC-ın İspaniyadakı xüsusi müxbiri Nigar Cəfərlinin "Azərbaycan Prezidenti Qarabağın ölkə iqtisadiyyatı və logistikasında mühüm yer tutacağını bildirib" başlıqlı məqaləsi dərc edilib (https://www.styleinternational.es/el-presidente-de-azerbaiyan-afirma-que-karabaj-ocupara-un-lugar-importante-en-su-economia-y-sector-logistico/).***

Məqalə dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələrinin iştirakı ilə Azərbaycan Diplomatik Akademiyasında keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" beynəlxalq konfransına həsr edilib. Məqalədə Prezident İlham Əliyevin beynəlxalq konfransdakı çıxışı zamanı torpaqlarımızın 30 ilə yaxın işğal altında olduğunu və Ermənistan ordusu tərəfindən törədilmiş vəhşilikləri unuda bilməyəcəyimizi vurğuladığı qeyd edilib.

İspan nəşrində qeyd olunub ki, Prezident İlham Əliyev münaqişədən sonrakı dövrdə iqtisadi sahədə həyata keçirilən layihələrə müraciət edərək, Qarabağın ölkə iqtisadiyyatında mühüm roluna, maliyyə siyasəti və xarici investorlar üçün yeni perspektivlərə diqqət çəkib. O, həmçinin üç aeroportun və dəmir yollarının birləşdirilməsi üzrə işlərin başlandığını və Zəngilanın regional logistika mərkəzinə çevrilməsi layihəsini qeyd edib.

"Style İnternational" biznesin, tikinti sektorunun, ümumi iqtisadiyyatın inkişafına xidmət edəcək, yeni iş yerləri açacaq, yeni imkanlar yaradacaq, aqrar sektoru dəstəkləyəcək Azərbaycan hökuməti tərəfindən Vətən müharibəsindən əvvəl hazırlanmış və böyük investisiyalar tələb edən ortamüddətli və uzunmüddətli inkişaf strategiyası barədə də diqqətə çatdırır. Məqalədə göstərilir ki, Azərbaycan Dünya Bankının "Doing Business" hesabatının reytinqində 28-ci yerə keçib. Qeyd edilib ki, Azərbaycanda yaxşı biznes mühiti və dəyərli insan kapitalı var. Azərbaycan, xarici borcları ÜDM-in 10 faizinə və yoxsulluğun səviyyəsini 5 faizə endirərək, dünyada ən yaxşı nəticə əldə edib.

Diqqətə çatdırılır ki, söhbət iki xalqın dinc yanaşı yaşaması üçün çox mühüm körpülərin qurulmasından gedirsə, İlham Əliyev liderlərin iradəsinə və siyasi müdrikliyinə böyük əhəmiyyət verir. Məlum olub ki, Azərbaycanın münaqişə səhifəsini çevirmək niyyətinə və Ermənistanla sülh sazişi imzalamağa hazır olmasına baxmayaraq, Ermənistan hakimiyyəti aqressiv mövqeyini saxlayır. Lakin gələcəyə baxan və sabitliyi ölkənin inkişafı üçün mühüm zəmin hesab edən şəxs kimi, prezident əməkdaşlığın qurulmasına hazır olduğunu bildirib. İspan nəşrində vurğulanıb ki, müharibə başa çatıb və bu gün Qarabağın dünyanın ən gözəl regionlarından birinə çevrilməsi üçün Cənubi Qafqazda yeni inkişaf və əməkdaşlıq strategiyasının formalaşdırılmasına ehtiyac yaranıb.


Style International

El presidente de Azerbaiyán afirma que Karabaj ocupará un lugar importante en su economía y sector logístico

19 abril, 2021 0

INTERNATIONAL CONFERENCE
NEW VISION FOR SOUTH CAUCASUS:
POST-CONFLICT DEVELOPMENT AND COOPERATION

Momento en el que el Presidente de Azerbaiyán, Ilham Aliyev, inicia su dicurso.

En la Academia Diplomática de Azerbaiyán –

Utilizamos cookies para asegurar que damos la mejor experiencia al usuario en nuestro sitio web. Si continúa utilizando este sitio asumiremos que está de acuerdo.

# Ermənistanın beynəlxalq konvensiyalara zidd qanunsuz əməlləri

***Azərbaycan tarixin müxtəlif dönəmlərində torpaq itkilərinə, humanitar fəlakətə və böyük dağıntılara məruz qalıb. Sarsıdıcı zərbələr yaşayan Azərbaycanın iki yüzillik tarixində baş verən bu hadisələr ermənilərin bizim torpaqlar hesabına "Böyük Ermənistan" yaratmaq istəyinə nail olmaq məqsədi daşıyıb. Tarixdən məlumdur ki, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri bağlanıldıqdan sonra ermənilər kütləvi surətdə Azərbaycan ərazilərinə yerləşdiriliblər. Bu siyasət uzun illəri əhatə etmiş və ermənilər Azərbaycan torpaqları hesabına öz coğrafi ərazilərini kifayət qədər genişləndirə bilmişlər.***



Ötən əsrdə 1948-1953-cü illərdə azərbaycanlılar Ermənistandan çıxarıldı, daha sonra isə 1988-ci ildə kütləvi qırğınlarla müşayiət olunan deportasiyaya məruz qaldılar. Təbii ki, doğma el-obasından qovulan azərbaycanlılar həm insan, həm də böyük maddi itkilərə məruz qalmış oldular. Ötən əsrin son illərində erməni təcavüzkar siyasətinin məntiqi olaraq tarixi torpaqlarımız Dağlıq Qarabağ və onun ətrafındakı Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan kimi 7 rayon işğal olundu. Statistik rəqəmlərdə qeyd olunduğu kimi, təcavüz nəticəsində 20 minə yaxın azərbaycanlı qətlə yetirilib, 100 min nəfər yaralanıb, 50 mindən çox adam əlil olub... Bu ermənilərin Azərbaycanlılara qarşı törətdikləri vəhşilik, vandallıqdır ki, tarixi həqiqətlər bu və ya digər əməlləri ortaya qoymuş olur. Belə ki, Ermənistan işğal etdiyi ərazilərdə 900-ə yaxın yaşayış məntəqəsi, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 131 minə yaxın ev, 1025 məktəb, 798 səhiyyə obyekti, eləcə də, 927 kitabxana, 100-dən artıq arxeoloji abidə, həmçinin 454 tarixi abidə və muzey, 40 mindən artıq muzey eksponatı erməni təcavüzünün qurbanı olub. Bütün bunlar az imiş kimi təcavüzkar ermənilər tərəfindən Azərbaycan ərazilərindən narkotik maddələrin yetişdirilməsi və tranziti üçün də istifadə olunub, faydalı qazıntıların istismarı ildən-ilə genişləndirilib.

Bütün bu və ya digər amillər dünyanın diqqətindədir. 44 günlük Vətən müharibəsində dünyanın gözü qarşısında cinayətlər törədən ermənilər bir daha faşist ideologiyalarını ortaya qoymuş oldular. Dünya mətbuatı ermənlərin insanlıqdan kənar hərəkətlərinə göz yummadı. Necə ki, bu gün Almaniyanın "nex24.news" portalında Nabi Yücelin müəllifliyi ilə "Dağlıq Qarabağ: Azərbaycan Ermənistanı istismarda günahlandırır" başlıqlı məqalə dərc olunub. Məqalədə Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən sonra bölgədə yaranmış yeni vəziyyətdən bəhs olunur. Qarabağ uğrunda Ermənistan və Azərbaycan arasında baş vermiş 44 günlük müharibənin 2020-ci il noyabrın 10-da sona çatdığı və müharibənin nəticəsində bölgədə nəinki yeni siyasi, eləcə də yeni iqtisadi vəziyyətin yarandığı göstərilir. Qeyd etdiyimiz kimi, Dağlıq Qarabağ və yeddi ətraf rayon qızıl, mis və digər qiymətli metal resursları ilə zəngin olan məkandır. Onilliklər boyu bu sənaye sahələrindən əldə olunan gəlirlər faktiki olaraq qondarma "Dağlıq Qarabağ Respublikası" ayaqda saxlamağa kömək edib.Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngin olan diyardır. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Söyüdlü - Zod qızıl mədəni tarixə uzun əsrlərdir məlumdur. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 27 il idi ki, Ermənistan tərəfindən talan edilirdi. İşğal edilmiş ərazilərdə 155 adda müxtəlif növ faydalı qazıntı yataqları mövcud olub. Faktlara nəzər salsaq, görərik ki, Kanadanın First Dynasty Mines şirkəti Kəlbəcərin "Söyüdlü" qızıl yatağının istismarı ilə məşğul olub. Mənbələrə istinad edərək bildirək ki, adı çəkilən şirkət "Söyüdlü" yatağından təkcə 2006-cı ildə 5 tondan artıq qızıl çıxarıb. Müəllif məqalədə qeyd edib ki, 2019-cu ildə qondarma DQR-in Ümumi Daxili Məhsulunun 13 faizi bu mədənlərin istismarından əldə edilib. Ermənistan və Dağlıq Qarabağdakı qondarma rejim müxtəlif yollarla xarici şirkətləri işğal altındakı Azərbaycan ərazilərinə qanunsuz olaraq sərmayə qoymağa cəlb ediblər. Bu beynəlxalq konvensiyalara zidd olub. Müharibəyə qədər Azərbaycan hökumətinin icazəsi olmadan işğal olunmuş Azərbaycan ərazilərində 69 xarici şirkət fəaliyyət göstəririb. Bunlar əsasən, ABŞ, Kanada, Fransa, İsveçrə, Avstraliya, Almaniya və sair ölkələrdən olan şirkətlər olub.

Artıq Azərbaycan öz tarixi torpaqlarına sahibdir. Bütün sərvətlərinin - yeraltı və yerüstü sərvətlərinin sahibidir. Ermənilərin xarabalığa çevirdiyi məkanlar tezliklə abadlaşacaq, çiçəklənəcək. 30 ilə yaxın müddətində işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri dağıdılmışdır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa edərək, dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Ermənistanda və xaricdə bu ölkəni üçtərəfli Bəyanatı yerinə yetirməkdən yayındırmaq üçün süni maneələr yaratmaqda maraqlı dairələr var"

*Ölkəmiz 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli Bəyanata böyük əhəmiyyət verir və onun bütün müddəalarının tam yerinə yetirilməsinə sadiqdir. Bu gün buradakı bəzi insanlar "erməni müharibə əsirləri" barədə əsassız iddialarla çıxış edirlər. Bəziləri bunu məqsədli şəkildə edir, bəziləri isə məsələnin mahiyyətindən xəbərsizdir. İlk növbədə, qeyd etməliyəm ki, Azərbaycan bu vaxtadək üçtərəfli Bəyanata uyğun olaraq bütün erməni müharibə əsirlərini qaytarıb.*



AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞPA-da sərbəst debatlar zamanı Azərbaycan nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva söyləyib. Deputat bildirib ki, Azərbaycanda hələ də saxlanılan bir qrup erməni hərbçilərinə gəldikdə, ilk növbədə, sual olunmalıdır: onlar harada, nə vaxt və hansı şəraitdə tutulublar? Nəzərə çatdırım ki, təxminən 60 nəfərlik qrupun üzvləri noyabrın sonlarında - Bəyanatın imzalanmasından sonra Ermənistanın Şirak bölgəsindən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə göndərilib. Bu fakt özlüyündə Ermənistanın həm beynəlxalq hüququ, həm də üçtərəfli Bəyanatda nəzərdə tutulmuş öhdəliklərini kobud şəkildə pozduğunu göstərir. Üstəlik, bu qrupun üzvləri 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun olaraq bölgədə bütün zorakılıqların dayandırıldığı vaxtda dörd Azərbaycan vətəndaşını öldürüb, bir nəfəri ağır yaralayıblar.

Nəticədə ölkəmizin müvafiq dövlət qurumları Azərbaycanın Xocavənd rayonunda antiterror əməliyyatı keçirmək məcburiyyətində qaldılar, bu şəxsləri dekabrın əvvəlində - üçtərəfli Bəyanatın imzalanmasından bir ay sonra tutdular. Hazırda məsələyə aydınlıq gətirmək üçün təhqiqat aparılır. Bu faktları nəzərə alsaq, Azərbaycanı bu insanları azadlığa buraxmağa çağıranlar davranışlarının ədalətə xidmət etmədiyini düşünmürlərmi? Əksinə, bu cür çağırışlar cəzasızlığı və belə hadisələrin təkrarlanmasını təşviq edir. Anlaşılmalıdır ki, bu qrupun üzvlərinin Azərbaycanda tutulması birbaşa olaraq Ermənistanın öz öhdəliklərini pozmasının nəticəsidir.

Bu, həll edilməsi lazım olan son dərəcə ciddi məsələdir. Ermənistan beynəlxalq hüququ və 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq, hərbçilərini Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə göndərməyə çalışır. Bu gün Ermənistanda valideynlər övladlarının zorla Azərbaycan ərazilərində hərbi xidmətə göndərilməsinə etiraz edirlər. Ermənistandakı çağırışçılar qanunsuz şəkildə onların iradəsinə zidd olaraq və beynəlxalq hüquq pozularaq başqa bir ölkəyə göndərilir. Bölgəmizdə davamlı sülhün və təhlükəsizliyin bərqərar olmasına dəstək göstərmək istəyən həmkarlarımızın bu məsələyə lazımi səviyyədə diqqət ayırması, Ermənistanı öhdəliklərini qəbul etməyə və onlara hörmət göstərməyə çağırması çox vacibdir.

S.Fətəliyeva diqqətə çatdırıb ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli Bəyanatdan sonra tamamilə yeni və perspektivli bir dövrə qədəm qoyulub. Əslində, üçtərəfli Bəyanat Ermənistanla Azərbaycan arasında 30 ildir davam edən silahlı qarşıdurmaya son qoyaraq, Avropa Şurasının bu iki üzvü arasında sülh və barışıq üçün nadir imkanlar təklif edir.

Beynəlxalq ictimaiyyətin 10 noyabr tarixli üçtərəfli Bəyanatın tam icrasına və bir-birinin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq sərhədlərin toxunulmazlığına hörmət əsasında Ermənistanla Azərbaycan arasındakı dövlətlərarası münasibətlərin normallaşmasına fəal dəstək verəcəyinə inanırıq. Bununla belə, beynəlxalq aktorlar hərəkətlərində diqqətli olmalıdırlar, səylər yalnız iki dövlət arasında davamlı sülh və barışığın inkişafına xidmət etməli, bölgədə düşmənçilik və nifrəti davam etdirmək istəyənlərə sərf edən əsassız ittihamları alovlandırmamalıdır. Təəssüflə qeyd etməliyəm ki, Ermənistanda və onun xaricində bu ölkəni 10 noyabr Bəyanatını, xüsusən də onun müddəalarını yerinə yetirməkdən yayındırmaq üçün süni problemlər və maneələr yaratmaqda maraqlı dairələr var, bu da davamlı sülh və rifaha zərər gətirə bilər.

Azərbaycan münaqişə səhifəsini bağlamağa hazır olduğunu dəfələrlə bəyan edib, bu məqsədlə bütün qonşu ölkələrin iştirakı ilə bölgədə inkişaf və əməkdaşlığı təmin edən gələcəyə baxışları ortaya qoyub. Bu məqsədlə bölgədəki bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması ilə əlaqəli əməli addımlar atılır. Qətiyyətlə inanırıq ki, bu, ilk addımlar, xalqımızı daha yaxşı bir gələcəyə aparacaqdır. İkinci Dünya müharibəsindən sonra Avropanın müxtəlif bölgələrində olduğu kimi, xüsusilə də, iqtisadi sahədə əməkdaşlıq xalqlara uğursuz münaqişə və hərbi əməliyyatların yaralarını unutdurmaq, onları yaxşılaşdırmaq və sülh, harmoniya şəraitində birlikdə yaşamağı təmin etmək gücündə idi. Bugünkü Avropa həqiqətən bu baxışın ən yaxşı nümunələrindən biridir. Təəssüf ki, bu gün Azərbaycan qarşı tərəfə sülh mesajları göndərərkən, hələ də Ermənistandan bu çağırışlara adekvat cavab eşitmirik.

## Bəhruz Quliyev: "Cəmil Həsənli kimilər əlaltı rolunda çıxış edirlər"



"Ümumiyyətlə, "Sərhədsiz reportyorlar" və bir sıra beynəlxalq təşkilatlar bütün dövrlərdə zaman-zaman Azərbaycan əleyhinə qara-piar kampaniyası aparmaqla məşğul olub. Bu, ilk və son deyil. Ötən gün də hər zaman Azərbaycana qarşı məkrli və qərəzli mövqeyilə seçilən "Sərhədsiz Reportyorlar" növbəti dəfə şər və böhtanla dolu hesabatını yayıb". Bu fikirləri SİA-ya açıqlamasında SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib.

Media Qrupunun rəhbərinin sözlərinə görə, təşkilat verilən sifariş əsasında Azərbaycanda söz və mətbuat azadlığı ilə bağlı qərəzli dəyərləndirmələr aparıb, ölkəmizi son sıralarda göstərib: "Hesabata diqqət yetirdikdə isə bir daha əmin olursan ki, orada yer alan qərəzli məqamlar Azərbaycan gerçəkliyini ifadə etmir, çünki ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunub. Bu cür bəyanatlar Azərbaycanda söz və mətbuat azadlığının olduğuna heç bir şübhə yarada bilməz. Çünki ölkəmizdə intellektual-mədəni cəmiyyət formalaşıb və hansısa qeyri-hökumət təşkilatının Azərbaycanda ictimai rəyə təsir etməsi mümkün deyil. Digər tərəfdən, Azərbaycanın çox güclü media kontingenti var və ictimaiyyətimiz hansı transmilli medianın və ya qeyri-hökumət təşkilatının nəyə, kimlərə xidmət etdiyini dərk edir".

Bəhruz Quliyev deyib ki, beynəlxalq təşkilatların Azərbaycana olan bu cür münasibəti illərlə formalaşıb: "Biz istəsək də, istəməsək də bu, mifi dağıda bilmirik. Çünki onların bu cür fikirləri Cəmil Həsənli kimi siyasətçilərin və anti-azərbaycançı qüvvələrin fikirləri əsasında formalaşıb. Cəmil Həsənlidən gözlədiyimiz bundan artıq ola bilməzdi. Bu məhz Cəmil Həsənli kimilərin verdikləri donoslar əsasında ortaya çıxmış mənfi fikirlərdir. İndi də bu şəxsin özünün sosial şəbəkə hesabında bu fikirləri qabartması gözlənilən hal idi. Çünki zaman-zaman Cəmil Həsənli, Əli Kərimli, Gültəkin Hacıbəyli kimilər bu kimi beynəlxalq təşkilatların əlaltısı olublar".

Baş redaktor əlavə edib ki, bu gün azad sözün cəmiyyətdə aşkarlıq və plüralizm prinsiplərinin bərqərar edilməsində, eləcə də demokratik inkişaf posesində əsas meyarlardan biri olduğunu nəzərə alan Azərbaycan hakimiyyəti mətbuatın inkişafı üçün heç zaman qayğısını əsirgəmir: "Bu gün Azərbaycanda ən müasir tələblərə və standartlara cavab verən kütləvi informasiya vasitələrinin mövcudluğu və mətbuatda qazanılan uğurlar məhz bu reallığın nəticəsidir.

Prezident İlham Əliyev ölkəmizdə azad sözün hamisidir. Dövlətimizin başçısı bunu ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələri uğurla davam etdirməklə, mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində atdığı addımlarla təsdiq edib. Odur ki, Azərbaycan mətbuatı da haqlı olaraq ölkə Prezidentini özünün dostu hesab edir.

Çox təəssüfləndirici məqam ondan ibarətdir ki, hər hansı bir beynəlxalq təşkilat Azərbaycan haqqında mənfi rəy formalaşdıran kimi radikal düşərgənin üzvləri bunu "toy-bayram" kimi qələmə verirlər. Bu qisasçılıq hissi, intriqalar o qədər bunların gözlərini tutub ki, onlar ölkəmizdə aparılan müsbət tendensiyaları da görməkdən məhrum olublar. Hətta onlar 44 günlük Vətən müharibəsində Azərbaycanın qazanmış olduğu parlaq Qələbəni belə məğlubiyyət kimi dəyərləndirirlər. Biz onsuz onlardan başqa münasibət də gözləmirdik. Sözügedən təşkilatlarla radikal düşərgənin rəhbərlərinin fəaliyyəti eynidir. Lakin onlar öz çirkin niyyətlərinə heç zaman nail ola bilməyəcəklər. Dünya artıq ölkəmizi qalib, inkişaf etmiş və Ali Baş Komandan İlham Əliyevin rəhbəri olduğu bir Azərbaycan kimi tanıyır".

**Ceyhun Rasimoğlu**

## Samvel Babayan uğursuz planını etiraf etdi: 1300-ə qədər itki!



Quldur "dqr" rejiminin sabiq "təhlükəsizlik şurasının" katibi Samvel Babayan etiraf edib ki, Ermənistanın 2020-ci ilin payızında Lələ-Təpə yüksəkliyinin yenidən ələ keçirilməsi üçün hazırlanan əməliyyatın uğursuz planı ona məxsus olub.

SİA xəbər verir ki, bu barədə Caucasian_bureau teleqram kanalı yazır. "Bu əməliyyatın nəticəsində erməni tərəfi bir neçə tank və yüzlərlə əsgər itirib. Bir sıra məlumatlara görə isə 1300-ə qədər hərbçi öldürülüb. Azərbaycan tərəfi isə sona qədər mübarizə apararaq yüksəkliyi qorumağa müvəffəq olub", deyə məlumatda qeyd olunur.

**Rövşən**

## Daha 12 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib





Ağır yaralanan daha 12 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, həmin qazilərimiz Ələkbərov İlkin Elçin oğlu, Atakişiyev Yusif Fariz oğlu, Kazımov Kənan Çinar oğlu, Eyvazov Səbuhi Rahim oğlu, Seyfullayev Havil Səyədullah oğlu, Osmanov Zamir Şakir oğlu, Quliyev Şahmar Anar oğlu, Abdullayev Pərvin Dövlət oğlu, Əliyev Arzu Könül oğlu, Məmmədkərimov Nicat Əfsun oğlu, Musayev Bəhman Natiq oğlu, Hüseynov Ülvi Məsum oğludur.

"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək. "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Allah qazilərimizə şəfa versin! Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.

# USAİD rəhbərinin qatı ermənipərəst olduğu təsdiqləndi: Bəs Türk dünyasının reaksiyası?

***Beləliklə, Co Bayden iqtidarı ilə bağlı ən pis ehtimallar özünü doğrultmaqda davam edir. Prezident seçilməkdən öncə söz verdiyi kimi, Bayden ardıcıl olaraq administrasiyasına bir tərəfdən qatı ermənipərəst olan, digər tərəfdən Sorosun məhsulları kimi tanınan şəxsləri gətirir. Əbəs deyil ki, artıq aprelin 15-də ABŞ Senatının Xarici Əlaqələr Komitəsi, vaxtilə Obama administrasiyasında qondarma erməni soyqırımının tanınması üçün səy göstərmiş Samanta Pouerin ABŞ-ın İnkişaf Agentliyinin (USAİD) rəhbəri vəzifəsinə namizədliyini təsdiq edib. Ən maraqlısı isə odur ki, komitə onun namizədliyini yekdilliklə, yəni 22 səslə dəstəkləyibdir. Əslində, bu da təəccüblü deyil, belə ki, Komitə sədri senator Bob Menendezdir. Kimdir Bob Menendez?***

### Xatırlatma:

Bob Menendez ermənilərin ABŞ-dakı əsas lobbiçilərindən biridir və əlbəttə ki, həm də Demokrat partiyasının üzvüdür...

### Qısa arayış:

Senator Menendez 2019-cu ildə ABŞ Senatının qondarma Erməni soyqırımının tanınmasına dair 150 saylı qətnaməsinin təşəbbüskarıdır. (Yeri gəlmişkən, Tramp administrasiyası həmin qətnamənin qəbul edilməsini qəti şəkildə pisləmişdi - red). Daima qondarma Dağlıq Qarabağı dəstəkləmiş, Azadlığa dəstək Aktın 907-düzəlişin dəstəkləyicisidir. O, respublikaçıların Tramp administrasiyasının Azərbaycana 120 milyon ABŞ dolları məbləğində hərbi yardımın ayrılmasını maksimum əngəlləmişdi. Vətən müharibəsi başlayandan sonra Senat tərəfindən Türkiyə və Azərbaycana təhlükəsizlik sahəsində yardımı məhtudlaşdıran 754 və 755 saylı qətnamələrin qəbul olunmasına nail olmuşdur. Və sonuncu dəfə 6 mart 2021 -ci ildə Baydenə xitabən demişdi: "Mən ümid edirəm ki, prezident verdiyi sözə əməl edərək, "erməni soyqırımını" tanıyacaq".

Ən əsası da, USAİD-in qanunsuz olaraq qondarma "artsax respublikası" ərazisində Azərbaycan hökumətinin icazəsi olmadan fəaliyyət göstərən ABŞ QHT-lərin fəaliyyətlərinin maliyyələşdirilməsini təmin edən qurum kimi tanınır. USAİD-n Dağlıq Qarabağdakı fəaliyyətlərinə dair ətraflı məlumatlarla isə aşağıdakı linklərdə tanış ola bilərsiniz:

https://www.usaid.gov/humanitarian-assistance/Nagorno-Karabakh https://r26i43-wr32r1ccg5d18cllec-wpengine.netdna-ssl.com/assets-/pdf/misc/Alexander_Karabakh_aid.pdf



Məhz bu danılmaz faktların özü USAİD tərəfindən Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ üzərindəki suverenliyini bilavasitə (!) şübhə altına almağın danılmaz isbatıdır.

İndi isə USAİD rəhbərliyinə ümumiyyətlə, türklərə açıq nifrət bəsləyən, antitürk, yaxud ermənipərəst bir şəxs gətirilib. Yeri gəlmişkən, SİA olaraq, biz Samanta Pouer haqqında ətraflı məqalələrlə, faktlar və sübutlarla çıxış etmişik.

### Bax:

https://sia.az/az/news/politics/856893.html

Amma məsələnin əhəmiyyətini nəzərə alaraq bir daha xatırlatmağı lüzum gördük.

Belə ki, Co Baydenin ən yaxın və etibarlı adamı sayılan, eləcə də, onunla eyni millətin (irland) nümayəndəsi olan bu xanım həm də Sorosun məhsuludur. Onun tərcümeyi-halına baxanda məlum olur ki, məhz Corc Sorosa məxsus Açıq Cəmiyyət İnstitutunun maliyyələşdirdiyi səfərlər hesabına bu xanım anidən "tanınmış jurnalistə" çevrilir.

https://www.politico.com/-blogs/media/2013/06/samantha-powers-history-in-journalism-165456

Və nəhayət, bütün fəaliyyəti dövründə Samanta Pouer mütəmadi qaydada qondarma erməni soyqırımı məsələlərini dəstəkləyib. Bu məqamları ehtiva edən faktları isə aşağıdakı linkdə oxuya bilərsiniz:

https://www.nytimes.com/-2019/10/29/opinion/turkey-armenian-genocide-congress.html

Lakin o, bununla da kifayətlənməyib və sosial şəbəkələrdə də erməni lobbisinin xidmətində dayanıb və fakt olaraq onun tvitterdəki paylaşımlarını da diqqətinizə çatdırır, eyni zamanda, 17 aprel 2006-cı ildə efirə çıxan "erməni soyqırımı" sənədli filmindəki çıxışını da təqdim edirik. Qərəzli və açıq şəkildə milli, irqi baxışları ortaya çıxaran filmin 41-42-ci və 44-45-ci, 53-cü dəqiqələrində çıxış edən Pouer türkləri alman faşistlərinə bənzədir və digər sərsəm fikirlərini səsləndirir, insanları Türk dünyasına qarşı çıxmağa həvəsləndirir və s.

https://www.imdb.com/title/tt0472044/releaseinfo?ref_=ttfc_ql_2

Beləliklə, bütün bu faktlardan sonra söz yalnız Türkiyədə deyil, həm də Azərbaycandadır. Təsəvvür edin, 12 aprel tarixində Azərbaycan Prezidenti cənab İlham Əliyev Co Bayden administrasiyasının birtərəfli mövqeyini haqlı olaraq tənqid edir və bundan dərhal sonra, yəni 15 aprel tarixində ABŞ administrasiyası aşkar antitürkü, izafi bir erməənpərəsti yüksək vəzifəyə təyin etdirir. Bu zaman istər-istəməz belə bir sual yaranır: Belə bir addımı açıq təhdiddən başqa necə başa düşmək olar?

Müşahidə edilən daha bir diqqətçəkici məqam həm də budur ki, indiki dövrdə administrasiya ilə Konqresin erməniperəst mövqeləri üst-üstə düşür və bu təhdidlərə mütləq adekvat cavablar verilməlidir. Misal üçün, ilk qərar kimi, Dağlıq Qarabağdakı qondarma və quldur rejimin qanunsuz fəaliyyətlərini dəstəkləyən USAİD və onun maliyyələşdirdiyi ABŞ QHT-lərinin fəaliyyətləri dərhal dondurula bilər. Belə ki, Samanta Pouer kimi bir aşkar erməniperəsət və antitürkçü şəxsin rəhbərliyi altında USAİD-dən Azərbaycan üçün, həmçinin qardaş Türkiyə hər hansı bir fayda gözləmək ən azından sadəlövhlük olardı...

***Rövşən RƏSULOV,***
***Aydınoğlu***

# İndiyədək "YAŞAT" Fondunun dəstəyi ilə 63 qazi müalicə məqsədilə Türkiyəyə göndərilib




***"YAŞAT" Fondu yaradıldığı gündən etibarən dörd istiqamətdə fəaliyyət göstərir. Həmin fəaliyyətlər çərçivəsində növbəti qazilər qrupu müalicə üçün Türkiyə Respublikasına yola salınıb. Onlar 12 nəfərdir.***

Ümumilikdə, Fondun dəstəyi ilə Türkiyə Respublikasına göndərilən qazilərin sayı 63 nəfər təşkil edir. Onlardan 7 nəfəri sağalaraq Vətənə geri dönüb. Hazırda qardaş ölkədə 56 ağır yaralı qazinin müalicəsi aparılır. Qarşıdakı günlərdə proses davam etdiriləcək. AZƏRTAC xəbər verir ki, bunu "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov deyib.

Fondun rəhbərinin sözlərinə görə, qazilərin müalicə məqsədilə ölkə xaricinə çıxarılması müəyyən prinsip əsasında aparılır: "Belə ki, səhiyyə qurumları tərəfindən ölkəmizdə müalicəsi mümkün olmayan ağır yaralı qazilərin siyahısı "YAŞAT" Fonduna təqdim olunur. Bundan sonra Fond həmin qazilərin ölkə xaricində müalicə alması üçün fəaliyyətə başlayır və proses həyata keçirilir". E.Hüseynov indiyədək "YAŞAT" Fonduna 32 milyon manatdan artıq vəsaitin köçürüldüyünü və onun 18 milyon manatdan çoxunun təyinatı üzrə xərcləndiyini də diqqətə çatdırıb.

# ETİRAF: Tiqran Danielyan: "Azərbaycan Silahlı Qüvvələri bütün topları sıradan çıxarıb"

***Daha bir erməni hərbçisi - 23 yaşlı Tiqran Danielyan erməni KİV-lərinə müsahibəsində bildirib ki, onun üçün Qarabağdakı 44 günlük müharibə oktyabrın 21-də başa çatıb. Belə ki, həmin vaxt Azərbaycan PUA-ları sonuncu erməni topunu məhv etdiyi anda. O, qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələri ermənilərin toplarını bütünlüklə sıradan çıxarıb.***



"Biz sonuncu bazaya bir top və 25 hərbçi ilə çatdıq. Oktyabrın 21-də sonuncu topa zərbə endirildiyi vaxt daha 7 nəfər həlak oldu, yerdə isə yalnız 9 nəfər qaldı. Biz alay komandirinin müavini ilə görüşdük və o bizə dedi ki, faktiki olaraq hərbi əməliyyatlarda iştirak etmək gücündə deyilik, texnikalar dağıdılıb, komandir yaralanıb, onun müavini isə öldürülüb", deyən Tiqran sonda bildirib ki, bundan sonra onları kəndə aparıblar və orada da onlar kimi hərbi texnikaları məhv edilmiş əsgərlər var idi. "Onların arasında eləleri də var idi ki, onlar ağır psixoloji vəziyyətdə idilər", Danielyan bildirib.

***Rövşən***

ANALİTİK AKTUAL

# "Sərhədsiz repartyorlar"a "qara rəng" dəstəyi



**Vüqar Rəhimzadə, "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist**

## *Yaxud Cəmil Həsənli kimi milli mənliyini itirənlər xəyanətlərini hansı rəng çaları ilə dəyərləndirirlər?*

***Ölkəmizə qarşı qərəzli mövqeyi ilə seçilən "Sərhədsiz repartyorlar" mətbuata dəstək təşkilatı dünya üzrə birillik Mətbuat Azadlığı İndeksini dərc edib. Təşkilat özünün çirkin ənənəsinə sadiq qalaraq növbəti dəfə şər və böhtan dolu hesabatı ilə beynəlxalq aləmə ağı qara, qaranı isə ağ rəngdə təqdim edib. Bu hesabatın da əvvəlkilərin davamı olaraq sifariş əsasında hazarlandığı artıq heç kəsə sirr deyil.***

Hesabatda Azərbaycanla Ermənistanın qərarlaşdığı yerlərə diqqət yetirsək bu üzdəniraq təşkilatın fəaliyyətini geniş şərh etməyə ehtiyac görmərik. Belə ki, dəyərləndirməyə əsasən mətbuat azadlığına görə Ermənistan 180 ölkə arasında 60-cı, Azərbaycan isə 167-ci yerdə qərarlaşıb. Təbii ki, bu, Azərbaycana yönələn növbəti qərəzli yanaşmanın göstəricisidir. Bu, təkzibolunmaz faktdır ki, Azərbaycan daim beynəlxalq qeyri-hökumət təşkilatlarının qərəzli yanaşmaları ilə üz-üzədir. "Freedom House", "Amnesty İnternational" və digər beynəlxalq hüquq müdafiə təşkilatlarının hesabatlarında da Ermənistan "azad", Azərbaycan isə "qeyri-azad" ölkələr sırasında yer alır. Demokratiyanın boğulduğu, insan hüquqlarının, mətbuat azadlığının kobud şəkildə pozulduğu işğalçı ölkənin "azad", demokratiya təcrübəsi nümunə olan, azad medianın inkişafı istiqamətində davamlı addımları təqdir edilən Azərbaycanın hesabatlarda qərarlaşdıqları yerlər təəccüb doğurmaya bilməz. Amma Azərbaycan heç zaman belə yanaşmalara görə ruhdan düşməyib, daim irəli baxıb, real siyasəti ilə belə qərəz, şər və böhtan dolu təbliğatları alt-üst edib.

Hesabatın əhatə etdiyi birillik dövrə nəzər salanda "Sərhədsiz repartyorlar" tərəfindən aparılan belə dəyərləndirmə yalnız və yalnız ikrah doğurur. Yaddan çıxarmayaq ki, dünya, o cümlədən ölkəmiz pandemiya ilə mübarizə aparır, virusa qalib gəlmək üçün Azərbaycan son bir ildə dünyaya birlik, həmrəylik çağırışını edərək irəli sürdüyü təşəbbüslərlə diqqətdə olub, ölkəmizin koronavirus infeksiyası ilə mübarizə təcrübəsi beynəlxalq səviyyədə təqdir edilib, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın qlobal problemə qarşı qlobal çağırışlarını dəstəkləyərək ilk gündən bu proqnozu açıqladı ki, Azərbaycan COVID-19-la mübarizədən az itki ilə çıxacaq. Belə bir həssas məqamda qeyd edilən hesabatın qərəzliliyi özünü daha qabarıq şəkildə büruzə verir.

Bu, məsələnin bir tərəfidir. Digər mühüm məqam isə odur ki, 2020-ci il sentyabrın 27-dən başlanan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın bütün sahələrdə malik olduğu imkanları dünyaya təqdim etdi. Ədalətli, beynəlxalq hüquqa əsaslanan mövqeyi ilə dünyanın diqqətində olan dövlətimizin başçısı İlham Əliyev 44 gündə Azərbaycanın həm döyüş meydanında, həm də informasiya cəbhəsində qələbəsini, üstünlüyünü təmin etdi. Prezident İlham Əliyevin 44 günlük İkinci Qarabağ müharibəsi dövründə 30-dan artıq xarici media orqanlarına müsahibələri, həmçinin post-müharibə dövründə, fevralın 26-da 4 saatdan artıq müddətdə 35-dən artıq yerli və xarici media nümayəndələrinin 50-yə yaxın suallarını cavablandırması, yerli və xarici media nümayəndələrinin vasitəsilə mesajlarını dünya birliyinə çatdırması dövlətimizin başçısının mətbuata nə qədər açıq olduğunu ortaya qoydu.

Bu qısa təhlilimiz "Sərhədsiz repartyorlar"ın ölkəmizə qarşı nə dərəcədə qərəz nümayiş etdirdiyini ortaya qoydu. Amma bu gün diqqəti çəkən məqam anti-Azərbaycan dairələrin əlində Azərbaycana qarşı təzyiq aləti olan bədnam "Milli Şura"nın oyuncaq sədri Cəmil Həsənlinin bu hesabata həqiqət donu geyindirib ictimai fikri çaşdırmağa cəhdlər etməsi, paylaşımları ilə diqqəti özünə çəkmək istəyidir. Paylaşımda yer alan fikirlər bu antimilli ünsürün düşmən dəyirmanına nə qədər böyük həcmdə su tökdüyünü, ermənilərin və ermənipərəst dairələrin əlində oyuncağa çevrildiyini açıq-aşkar təsdiqləyir. Belələrinin Azərbaycan xalqının adından danışmağa mənəvi haqqı ola bilməz. Vətən müharihəsinin getdiyi dövrdə 50 siyasi partiyanın dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətə dəstəklərinin ifadəsi olaraq onun ətrafında sıx birləşmələri fonunda üzdəniraq "milli şuraçı"ların seyrçi mövqedə dayanıb satqınlıqlarını, xəyanətkarlıqlarını bir daha büruzə vermələri ikrah doğurdu, onlara qarşı ictimai qınağı birə on qat artırdı. Daim bu çağırış edilir ki, ümummilli məsələlərdə iqtidar-müxalifət münasibətləri bir kənara qoyulmalı, dövlət maraqları hər şeydən üstün tutulmalıdır. 50 siyasi partiya bu mövqeyi ortaya qoydu. Ermənilərin maraqlarının müdafiəçisi kimi çıxış edən cəmil həsənlilər isə əksinə, erməni dəyirmanına su tökməkdə davam etdilər. Bu antimilli ünsürlər unudurlar ki, dövlətinə, xalqına xəyanət yolunu tutmaq heç kimə başucalığı gətirməz. Cəmil Həsənli paylaşımında nədənsə Ermənistanın hansı meyarlara görə öndə olduğunu açıqlamayıb. Əgər bir illik zamana nəzər salsaq görərik ki, İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda qarşıdurmalar pik həddinə çatıb. Həbslər kütləvi xarakter alıb, mətbuatın baş verənləri qələmə almasına qadağalar qoyulub. Bəs, demokratiyadan, mətbuat azadlığından dərs keçmək iddiasında olan "Sərhədsiz repartyorlar" niyə hesabatlarında Ermənistanı aydan arı, sudan duru kimi təqdim edir? Erməniprəst dairələrin sifarişləri əsasında hazırlanan belə cılız hesabatlar heç zaman həqiqəti əks etdirə bilməz. Reallıq budur ki, müəyyən təşkilatlar sanki Azərbaycanı qaralamaqla bağlı bir-biri ilə yarışa giriblər. Bu yarışlar həmin qurumların ədalət meyarını nə qədər ayaq altına atdıqlarını ortaya qoyur.

Şübhəsiz, belə yanlış dəyərləndirmələr Azərbaycanda söz və mətbuat azadlığına kölgə sala bilməz. Çünki ölkəmizdə demokratik cəmiyyət mövcuddur. Bu cəmiyyətin əsas atributlarından biri də məlumat, söz və fikir azadlığının mövcudluğudur. Prezident İlham Əliyevin fikirlərinə istinad etsək, internetin azad olduğu ölkədə heç bir məhdudiyyətdən söhbət gedə bilməz. Ölkə əhalinin 85 faizi internet istifadəçisidir. Bu reallığın fonunda xarici anti-Azərbaycan dairələrin sifarişləri əsasında ərsəyə gələn belə hesabatlar kimlərəsə xoş gəlməkdən, ən əsası lazımsız kağız parçasından başqa bir şey deyil. Prezident İlham Əliyev daim çıxışlarında bu fikri bildirir ki, Azərbaycana qarşı qərəzli mövqedə dayanan, qarayaxma kampaniyası aparan qüvvələrin olduğunu unutmamalıyıq. Onların belə əsassız, qərəzli təbliğatlarına qarşı reallıqları qoymalıyıq. Ermənipərst dairələrə dəstək olan "sapı özümüzdən olan baltalar" qul psixologiyalarını bir kənara qoyub həqiqətlərə dövlətimizin, xalqımızın maraqları prizmasından yanaşsalar bataqlıqdan çıxar, az da olsa ictimai rəydə özləri barədə formalaşdırdıqları mənfi reputasiyada dəyişikliklər edərlər. Amma düşünürük ki, qozbeli qəbir düzəldər.

Xəyanətkar Cəmil Həsənli paylaşımında Azərbaycanda mətbuatın inkişaf səviyyəsini qara rəngdə təqdim edəndə görəsən özünün satqınlığını hansı rəng çaları ilə dəyərləndirmiş olur? 44 günlük Vətən müharibəsində bir kənara çəkilib Azərbaycandan çox Ermənistan üçün narahatlıq keçirən cəmil həsənlilərin, əli kərimlilərin bu gün qeyd olunan hesabatı belə bəh-bəhlə şərh etmələri səbəbsiz deyil. Azərbaycanın Vətən müharibəsində hərbi-siyasi Qələbəsi, Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur etməsi sözsüz ki, ermənipərəst mövqeli cəmil həsənliləri narahat edəcək, bu qısqanclıqlarını ölkəmizin əleyhinə tənqidi fikirlərlə nümayiş etdirəcəklər. Azərbaycana Qələbə sevincini yaşadan qalib ölkənin qalib Lideri kimi dövlətimizin başçısı İlham Əliyevin ünvanına yanlız ölkə daxilində deyil, beynəlxalq səviyyədə də səslədirilən xoş fikirlərə cəmil həsənlilərin diqqət yetirmələri kifayət edər.

Cəmil Həsənlinin belə mövqeyi heç kimi təəccübləndirmir. Başqa sözlə, Ə.Naibovun "Daş yuxular"ına, Rüstəm İbrahimbəyovun "Qafqaz üçlüyü"nə haqq qazandıran üzdəniraq "tarixçi alim"in mətbuatımıza kölgə salması başadüşüləndir. Millətini aşağılayan, ermənilərin ayağına verən bir "ziyalı"ya hansısa adı verməkdə bu baxımdan çətinlik çəkirik ki, düşmən dəyirmanına su tökən bu satqınlar bütün mənfi keyfiyyətləri özlərində birləşdiriblər. Vətənə xəyanət yolunu tutan bir "ziyalı"nın özünü vətənpərvər saymağa haqqı varmı? Bunun cəzası ictimai qınaq, hər gün ünvanına səsləndiriləcək "Belə "ziyalı"ya ar olsun!" fikri olacaq. Cəmil Həsənli bu gün ölkəmizə qarşı qərəzli mövqe tutanlara dəstək verib mətbuatımızın inkişaf səviyyəsini aşağılamağa çalışanda tarixçi olduğunu unutmasaydı heç olmasa. 44 günlük Vətən müharibəsi dövründə bircə dəfə qələmini əlinə alıb tarixi faktların dili ilə mənfur düşmənə və ona havadarlıq edənlərə tarix dərsi keçərdi. Cəmillərin bu gün Azərbaycana Zəfər qazandırdığı üçün tənqid atəşinə tutduqları dövlətimizin başçısı İlham Əliyev 44 gündə dünyaya tarix, hüquq və milli qürur dərsi keçdi. İnformasiya müharibəsini xarici KİV-lərə verdiyi müsahibələri ilə yüksək səviyyədə aparan Müzəffər Ali Baş Komandanın beynəlxalq səviyyədə unvanına səsləndirilən, həqiqəti özündə əks etdirən fikirlər niyə "sapı özümüzdən olan baltaları" belə qıcıqlandırır? Hər zaman xalqına güvənən cənab İlham Əliyev bu birliyi, həmrəyliyi müharibə dövründə dəmir yumruğu ilə düşmənə göstərdi. 30 ildə bir dəfə də olsun qaçqın-köçkün həyatı keçirən soydaşlarımızın ağrı-acısına məlhəm olmayan, onları yada salmayan cəmil həsənlilər isə uşaq qatili erməniləri dəstəkləməkdən yorulmadılar. Heç yorulmayacaqlar da. Çünki vicdanlarını, əqidələrini pula satanları, milli mənliyini itirənləri danışdıran erməni və erməniпərəst himayədarlarından aldıqları, özləri üçün "yaşıl işıq" hesab etdikləri pullardır. Amma undurlar ki, itirilmiş mənəviyyatlarını milyonlar xərcləsələr belə geri qaytara bilməzlər. Bu üzdəniraqlar şəhidlərimizin qanı bahasına qazanılan Qələbəmizə qara yaxaraq cəmiyyəti çaşdırmağa çalışırlar. Milli Ordumuzun döyüş təcrübəsinin digər ölkələrin hərbçiləri tərəfindən bəyənildiyi, öyrənildiyi bir məqamda əsgər və zabitlərimizin qanı-canı bahasına qazanılan uğurlarımızla bağlı böhtanlar söyləmək şərəfsizlik, satqınlıq, millətə xəyanətdir. Azərbaycan Ordusu dünyanın hərb tarixinə yeni səhifə yazdı. Bundan qürur duymaq gərəkdir. Qarabağ müharibəsində qazandığımız Zəfərə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə, xalqımıza ardı-arası kəsilmədən təbriklər gəlir. Amma səsi eşidilməyən yalnız və yalnız antimilli qüvvələr oldu. Tarix heç nəyi silmir. Xalqımız torpaqlarımızı satanların kimlər olduğunu, onu özümüzə qaytaranların kim olduğunu gördü.

Bugünümüzün reallığı budur ki, milli və bəşəri dəyərləri rəhbər tutan Azərbaycan mətbuatı demokratiya və aşkarlığın mühüm vasitəsi kimi xalqımıza öz ali məqsədlərini həyata keçirmək yolunda bələdçilik edir. Digər sahələr kimi, mətbuatımız da zamanın, dövrün tələblərinə uyğun təkmilləşir, yeniləşir. Söz, mətbuat azadlığının inkişafı, mətbuatın dünya təcrübəsindən bəhrələnməsi, xüsusilə KİV-lərin maddi-texniki imkanlarının yaxşılaşdırılması, jurnalistlərin peşə bacarığının yüksəldilməsi və hüquqlarının qorunması üçün həyata keçirilən tədbirlər, mətbuata dövlətin nəzarət mexanizmi olan senzuranın ləğvi müstəqil KİV-lərin inkişafı istiqamətində atılan önəmli addımlardandır.

Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən azad mətbuatın inkişafına yönəlmiş bu siyasətə sadiq qaldı. Dövlətimizin başçısı "Biz söz azadlığını qoruyacağıq və müdafiə edəcəyik" söyləyərək bu sahədə demokratiyanın tələblərinə uyğun islahatların aparılmasını daim diqqətdə saxlayır. Ulu öndər Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin üç dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülməsi onun mətbuatın inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir.

Bu gün ölkəmizdə azad mətbuatın inkişafına yönələn addımları xeyli sayda sadalaya bilərik. Düşünürük ki, gözləri xaricdəki ağalarından aldıqları qrantların müqabilində kor, qulaqları kar olan cəmil həsənlilər üçün heç bir uğurumuz maraqlı deyil. 30 ilin işğalına son qoyulub, tariximizə yazılan Zəfərdən kədərlənən belələrinə hansısa adı verməkdə də çətinlik çəkirik. Bu gün ölkəmizdə mətbuat azadlığı, fikir plüralizmi olmasaydı, cəmil həsənlilər düşüncələrinin məhsulu olan yalnış fikirləri ilə gündəmi ələ almağa səy göstərməz, müxalifət mətbuatlarında düşmən dəyirmanına su tökdüklərini ortaya qoyan yazılarla ictimai fikri çaşdırmağa cəhdlər etməzdilər. Deməli, Azərbaycanda azad mətbuat var, hər kəs öz fikrində sərbəstdir. Yazının əvvəlində də qeyd etdiyimiz kimi, mənliyini, vicdanını itirən, ziyalı adına ləkə olan, xalqına, dövlətinə xəyanət yolunu seçib, özünü təhqirlərin və tənqidlərin ünvanladığı "məkana" çevirən, damarlarından azərbaycanlı yox, erməni qanı axan xəyanətkarlardan yalnız və yalnız uğurlarımıza kölgə salmağa çalışanlara dəstək vermələrini gözləmək olar. Belələrinə xalqın nifrəti tükənən deyil.

# Ermənidən artıq erməni, daşnakdan artıq daşnak!



Армия, потратившая миллиарды долларов, не должна была иметь таких потерь: азербайджанская оппозиция





PanARMENIAN.Net

**Лидер азербайджанской оппозиции – Алиеву: «А почему не смогли взять Карабах?»**

6 апреля 2016 - 18:37 AMT

Лидер главной оппозиционной партии Азербайджана «Народный фронт» Али Керимли выступил с заявлением в котором раскритиковал военно-политическое руководство Азербайджана в связи с провалом военной операции в зоне карабахского конфликта.

Как передает «Арцахпресс» со ссылкой на сайт azadliq.info, на своей странице Фейсбук Керимли напомнил властям о ежедневных заявлениях о «захвате» НКР, о словах «Надо будет, возьмем Карабах», и задал им вопрос: «А почему не смогли взять?».







## Bir vaxtlar Azərbaycan Ordusunu hədəfə alan bu xainlər indi də Qarabağın yenidən quruluraq abadlaşmasına qarşı dil uzadırlar

Artıq azad olunmuş Qarabağda yol-inşaat, infrastruktur, hava limanları və s. istiqamətlərdə nəhəng işlərə start verilib və Prezident İlham Əliyev bununla bağlı çıxışlarına bəyan edib ki, çox keçməz, Qarabağımız dünyanın ən cənnətməkan diyarlarından birinə çevriləcək. Söz yox ki, uzun illər erməni işğalı altında qalan torpaqlarımız dağıdılıb və talan edilib, eləcə də ermənilərin qanunsuz məskunlaşdıqları şəhər və qəsəbələrimiz, ümumiyyətlə, sovet vaxtından qalan köhnə, yöndəmsiz tikililərlə bərbad vəziyyətdə qalmaqda davam edib. Bu da sübut edir ki, ermənilər heç vaxt öz torpaqlarında yaşamadıqlarını bildikləri üçün hər daşa etinasız davranıb, hətta qarşılarına çıxan hər şeyi dağıdaraq məhv ediblər.

Nəticədə, bu gün dövlət başçımızın da dediyi kimi, Qarabağa öz sahibləri geri dönüblər və indi bu müqəddəs torpaqlarımızın dirçəldilməsi, abadlaşdırılması prosesinə başlanılıb.

## Naira Zoqrabyan 44 günlük müharibə zamanı Mingəçeviri bombalamağa çağırışlar edir, hətta bu barədə sosial şəbəkələrdə də açıq şəkildə yazırdı!

Lakin bu gün bu uğurlardan, qalibiyyətdən ermənilərdən də betər yanıb-yaxılanlar, az qala düşmənlərdən də izafi özlərini narahat hiss edən ünsürlər də var - onlar ilərdir ki, milli xəyanətkarlıq yolunu tutan sözdə müxalifətçilər və onların dırnaqarası liderləridir. Baxın, təkcə Şuşa kimi müqəddəs və tarixi şəhərimizdə başladılan tikinti-quruculuq, abadlıq işləri nədənsə bu ünsürləri qıcıqlandırır, özü də Ermənistandakı hay-küyçü siyasilərdən heç də fərqlənməyərək.

Məsələn, Ermənistan parlamentinin deputatı Naira Zoqrabyan Şuşada müasir və yeni binaların tikintisinə başlama prosesini "vandallıq" kimi qələmə verməsinə ilk dəstəyi məhz AXCP-"Milli Şura" cütlüyünün hay-həşirçiləri özlərinə məxsus şivənçilikləri ilə dəstək göstərdilər. Lakin unutdular ki, dəstək göstərdikləri düşmən, daha dəqiq desək, Naira Zoqrabyan 44 günlük müharibə zamanı Mingəçeviri bombalamağa çağırışlar edir, hətta bu barədə sosial şəbəkələrdə də açıq şəkildə yazırdı. Maraqlıdır, onda da bu yığnaq onun terror çağırışlarına gizli şəkildə dəstək göstəriblərmi?

## Heç bir mənəviyyata, ləyaqətə, milli dəyərlərə sığmayan belə bir addımı başqa necə adlandırmaq olar?

Azərbaycandan isə onunla paralel fəaliyyət sərgiləyən, terrorçuluq ideyalarını yaşadan, dəstək göstərən AXCP sədri Əli Kərimli, "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü Tofiq Yaqublu, "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahiddir. Belə desək, bu vətənşivənlər yığnağı Zoqrabyanın Şuşada aparılan bərpa işlərinə etirazını Azərbaycan ictimaiyyəti üçün tirajlayır və dəstəkləyirdilər, üstəlik, azərbaycanlılardan erməni deputatının səsinə-səs verməyə tələb edirlər (?!).

Heç bir mənəviyyata, ləyaqətə, milli dəyərlərə sığmayan belə bir addımı başqa necə adlandırmaq olar? Əlbəttə ki, DÜŞMƏNÇİLİK VƏ XƏYANƏT!

Bu gün belələrinin ermənidən artıq erməniçilik, daşnaklıqdan artıq daşnakçılıq sərgiləmələrinə qarşı xalqın hiddəti əlbəttə ki, artır. Xalq belə mənfurlara nifrət edir və söz yox ki, bundan sonra da belə olacaq. Çünki Şuşanın bərpasını "vandalizm", "mənəvi terror" adlandıranlara qarşı başqa heç cür normal münasibət bəsləmək ümumiyyətlə, qeyri-mümkündür.

Əlbəttə, belələrindən zatən başqa heç cür münasibət gözləməyə də dəyməzdi. Misal üçün, bu həmin Əli Kərimlidir ki, 2016-cı ilin Aprel zəfərindən sonra Azərbaycanın müzəffər ordusuna qarşı ermənilərin maraqlarına sərf edən çıxışlar edərək, fikirləri Ermənistan KİV-lərinin manşetlərinə çıxarılmışdı. Yaxud, bu həmin Gültəkin Hacıbəylidir ki, Aprel qələbəsindən sonra "Milli Şura"nın keçirdiyi mitinqlərinin birində Azərbaycan Ordusunun sınıq, xarab silahlarla döyüşməsi iftirasını səsləndirmişdi. İndi isə 44 günlük Vətən müharibəsinin qələbə dadını çıxaran xalqın, dövlətin maraqlarına qarşı bu cür ucuz reklamlarla çıxır, özlərini daha rüsvayçı vəziyyətə salırlar.Təkcə təqdim edilən fotolara və xatırlatmalara baxmaq kifayət edər ki, bu məxluqların "kimliklərinin" şahidi olasan...

Bu gün isə Azərbaycanın strateji obyektinə terror edilməsi, Şuşanın bərpasına etiraz çağırışı edən Naira Zoqrabyanla eyni məqsəd və ideyanı bölüşən Əli Kərimliyə, Tofiq Yaqubluya, Qənimət Zahidə, Gültəkin Hacıbəyliyə və onlara züy tutanlara başqa hansı münasibəti sərgiləmək olar?

***Rövşən RƏSULOV***

# Bəşəriyyət daha ölümcül bir epidemiya ilə qarşılaşa bilər



İnsanlıq öz hərəkətləri ilə koronavirus pandemiyasına səbəb oldu, ancaq insanlar problemi kifayət qədər başa düşmədilər. Müasir insanların "beyinlərini təmizləmək" üçün daha təhlükəli bir epidemiyanın gələ biləcəyini tanınmış həkim və teleaparıcı Aleksandr Myasnikov bəyan edib. SİA xəbər verir ki, Myasnikov "Teleqram" kanalında insanların açıq şəkildə problemlərlə üzləşdiyini qeyd etdi.

"Bədbəxtlik qarşısında birləşməyi öyrənin! Təbiət ölüm nisbəti 0,5 faiz deyil, 20 qat daha güclü bir şey göndərəcək!"- həkim fikirlərini bildirib. Onun sözlərinə görə, pandemiya bəşəriyyətin öz hərəkətlərinə görə təbiətdən aldıqları bir cəza idi. Bundan əlavə, dünyadakı hökumətlər yüksək patogen bir quş və ya donuz qripinin ortaya çıxmasından qorxurlar- məsələn, Fransa H5N8 qripinin ortaya çıxması ilə dünyanı qorxutdu.

Bundan əvvəl həkimlər və virusoloqlar növbəti- həqiqətən ölümcül epidemiyanın bir quş və ya donuz qripi pandemiyası olacağı ilə bağlı xəbərdarlıq etdilər və COVID-19-u bunun üçün "yüngül gimnastika" adlandırdılar. Koronavirusla mübarizə qərargahında hesab edirlər ki, "quş qripi bir partlayışdır və sonra ölüləri sayırıq, ölüm nisbəti 35-45%-dir və onu dayandırmaq son dərəcə çətindir. Təhlükə çox böyükdür."

Virusoloqların fikrincə, ölüm nisbəti yüksək olan ciddi bir qrip- "bu, iki mutasiyadır- birinci donuz və ya quşdan insana keçəndə baş verən mutasiya, ikinci mutasiya isə insandan insana keçdikdə".

Qeyd edək ki, 2019-cu ilin noyabr ayında Con Hopkins Universitetində gələcək epidemiyanın müzakirə olunduğu bir seminar keçirildi. Və bunun dünyaya yayılan və bəşəriyyətin üçdə ikisinə təsir edəcək qripdən qaynaqlandığını simulyasiya etdilər.

65 milyon insan ölə bilər. İqtisadiyyat 700 milyard dollar itirəcək. Öz növbəsində, digər mütəxəssislər bir müddət əvvəl Valday Klubunda COVID-19-un iqtisadi nəticələrinin müzakirəsinə tətilin təxmini vaxtı ilə zarafatla COVID-21 deyildiyini xatırladılar.

Bu anda iqtisadi nəticələrlə yanaşı qeyri-rəsmi olaraq COVID-21 də adlandırılan daha çox virulentliyə malik bir mutasiyanın ortaya çıxması mümkündür. "Genetiklərimiz bir neçə gün əvvəl İngiltərənin cənub-şərqindəki sürətli yayılma ilə əlaqəli ola bilən yeni bir koronavirus variantını kəşf etdilər. İlk araşdırmalar virusun yeni variantının əvvəllər müəyyənləşdirildiyindən daha sürətli yayıldığını göstərdi"- İngiltərə Səhiyyə Nazirliyinin rəhbəri Metyu Henkok deyir.

Avropada mütəxəssislər, ümumiyyətlə, dünyanın köhnə dövrünə bir daha dönməyəcəyinə inanırlar. Qrip və ARVI-ya qarşı klassik peyvəndlər sizi mövsümi epidemiyalardan xilas etmir. Xüsusi bir dərman və təkmilləşdirilmiş müalicə protokolları tələb olunur.

Səhiyyə xidmətinə daha çox vəsait ayrılmalıdır - həm yataq tutumunu, həm də peşəkar tibb işçilərinin sayını artırmaq lazımdır. Bu il həm "kovid" məhdudiyyətlərin yaratdığı iqtisadi problemləri, həm də milli səhiyyə xidmətlərinin effektivliyindəki açıq fərqləri göstərə bilər. Bu iki faktorun mənfi uyğunlaşması ilə siyasi qüvvələrin manevr üçün çox az variantı olacaq və gələcək illər üçün gələcək siyasi həyat hərəkətlərindən asılı olacaqdır.

***Elçin Bayramlı***

# Azərbaycan ən qabaqcıl texnologiyaları tətbiq edir

## "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyası məhz yüksək texnologiyalara əsaslanır

***Müasir dünyada "smart-city", "smart-village" yəni, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası dünyada baş verən qlobal çağırışlara cavabdır. Bu gün yüksək texnologiyaların ölkəmizdə inkişafı "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyasının hazırlanmasına zəmin yaradıb. Azərbaycanda "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının tətbiqinin sürətləndirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev imzaladığı Sərəncamına əsasən, "Ağıllı şəhər" və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması ilə əlaqədar İşçi qrup yaradılacaq.***



Sərəncamda qeyd olunduğu kimi, Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindəndir. Müasir telekommunikasiya, sensor, "Böyükhəcmli məlumatlar" (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir. Qeyd edilən texnologiyaların bir-birilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin növbəti inkişaf mərhələsində funksional, genişmiqyaslı "Ağıllı şəhər" və "Ağıllı kənd" xidmətlərinə keçid üçün zəmin yaradır.

Bu gün işğaldan azad edilmiş ərazilərdə də "smart-city", "smart-village" yəni, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası qurulacaq. Xatırladaq ki, Davos Ümumdünya İqtisadi Forumunda Azərbaycan Prezidentinin iştirakı zamanı 10-larla şirkətlə görüşləri olub və onların böyük əksəriyyəti də texnoloji şirkətlərdir. "Bu görüşlər əsnasında görürəm ki, dünyada hansı yeniliklər var, hansı müsbət inkişaf var və çalışıram ki, o şirkətləri Azərbaycana cəlb edim", deyən Azərbaycan Prezidenti bildirib ki, ona görə də, ölkəmizdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası işlənməlidir və tətbiq edilməlidir". Bu sahədə ölkəmizdə kifayət qədər peşəkar kadr potensialı mövcuddur. "Biz gənclərimizi xaricdə aparıcı ali məktəblərdə oxutmaq üçün böyük proqramlar icra etdik və bu gün bu davam edir. Şadam ki, xaricdə təhsil alan gənclərimizin böyük əksəriyyəti ölkəmizə qayıdıb və bu, bizim kadr potensialımızı gücləndirir...Kadr hazırlığı ölkəmizin iqtisadi və texnoloji inkişafı ilə uzlaşmalıdır. Ancaq belə olan halda, biz istədiyimizə nail ola bilərik", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərimiz "Ağıllı kənd" ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpa olunacaq. Əlbəttə ki, bu layihənin məqsədi kəndlərdə əhalinin şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə rahat çıxışı təmin etmək, eləcə də xidmət, qazanc və dövlət xidmətlərindən yararlanmaq baxımından kənd və şəhər arasındakı fərqi aradan qaldırmaqdır. Yüksək texnologiyalara əsaslanan "Ağıllı kənd" və "Ağıllı şəhər" layihəsi ən qabaqcıl texnologiyaların tətbiqidir. İlk "Ağıllı kənd" layihəsi Zəngilan rayonunun Ağalı kəndindən start götürmüş oldu. Artıq Azərbaycan yeni bir inkişaf mərhələsini yaşayır və görülən işlər, bu reallıqlar daha uğurlu sabahlara hesablanmışdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İqtisadiyyatın kiçilməsi tempi azalıb: Bərpa prosesi başlayıb?



Dövlət Statistika Komitəsinin açıqladığı 2021-ci ilin yanvar-mart ayları üzrə makroiqtisadi göstəricilərdən belə məlum olur ki, ölkə iqtisadiyyatının kiçilməsi tempi azalıb. Belə ki, ölkədə ümumi daxili məhsul istehsalı cari ilin yanvar ayında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz, yanvar-fevral aylarında 3,2 faiz azalsa da, yanvar-mart ayları üzrə azalma 1,3 faiz təşkil edib. Neft-qaz sektorunda əlavə dəyər yanvarda 6,2 faiz, yanvar-fevral aylarında 7,5 faiz azalmışdısa, rüblük azalma 7,3 faiz olub. Qeyri neft-qaz sektorunda isə yanvarda 0,1 faiz artım qeydə alınsa da, fevralda 0,4 faiz azalma olmuşdu. Lakin rüb ərzində bu sektorda 2,1 faizlik artım qeydə alınıb.

### Buradan belə bir sual yaranır: İqtisadiyyatın bərpası prosesi başlayıbmı?

Əvvəlcə ondan başlayaq ki, COVID-19-un iqtisadiyyata təsiri ötən ilin mart ayında hiss edilməyə başlamışdı. Belə ki, yanvar ayında 2,4 faizə, yanvar-fevral aylarında 2,8 faizə çatan iqtisadi artım martda 1,1 faizə enmişdi. Neft-qaz sektorunda azalma hələ yanvar ayında başlamışdı. Lakin yanvarda 0,7 faiz olan azalma yanvar-fevral aylarında, həmçinin rüb ərzində 2,1 faizə çatmışdı. İqtisadiyyatın qeyri neft-qaz sektorunda isə əlavə dəyər yanvarda 4,9 faiz, yanvar-fevral ayları üzrə 6,7 faiz artsa da, mart ayının hesabına rüblük göstərici 3,5 faizə enmişdi.

Məlum məsələdir ki, "OPEC plus" razılaşması çərçivəsində neft hasilatının azadılması ötən ilin birinci rübü ilə müqayisədə bu ilin eyni dövründə neft-



qaz sektorunda ÜDM-in azalmasını şərtləndirib. Lakin ötən ilin birinci rübündə də əvvəlki ilə nisbətən azalmanın qeydə alınması cari ilin birinci rübünün göstəricisinə öz təsirini göstərib. Əks təqdirdə, azalma göstəricisi daha böyük ola bilərdi.

Qeyri-neft sektorunda da vəziyyət eynidir. 2020-ci ilin yanvar-fevral ayları üzrə bu sektorda 6,7 faizlik artımın qeydə alınması fonunda cari ilin eyni dövrünün müqayisəsində özünü göstərib. Həmçinin pandemiyanın iqtisadiyyata, o cümlədən qeyri-neft sektoruna təsirinin 2020-ci ilin mart ayından başlaması və bunun rüblük nəticəyə təsir etməsi cari ilin eyni dövrü üçün artımın qeydə alınmasına imkan verib.

2021-ci ilin növbəti dövrünün də bu cür davam edəcəyi gözləniləndir. Nəticədə "OPEC plus" üzrə yeni "Əməkdaşlıq Bəyannaməsi"nə əsasən, Azərbaycanın gündəlik xam neft istehsalını may ayından etibarən artırması, Cənub Qaz Dəhlizi çərçivəsində təbii qaz hasilatının artması, peyvəndləmə prosesinin pandemiyanın idarə olunmasına imkan verəcəyi ilə bağlı gözləntilər, eyni zamanda, ötən il iqtisadiyyatın 4 faizdən çox kiçilməsi iqtisadi artımla bağlı nikbin proqnozları dəstəkləyir.

Bununla belə, söhbət heç də iqtisadiyyatın qısa zamanda pandemiyadan əvvəlki dövrə qayıdacağından getmir. Böhranın miqyası və əvvəlki böhranlarla müqayisəsi də onun tez bir zamanda aradan qaldırılmasını təsəvvür etməyə belə imkaan vermir. Lakin ÜDM-dəki azalmanın yanvar-fevral aylarındakı 3,2 faizlə müqayisədə yan-



var-mart aylarında 1,3 faizə enməsi iqtisadiyyatın azalması prosesinin artıq arxada qalmasından xəbər verir. Elə beynəlxalq maliyyə qurumlarının Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnozlarını yaxşılaşdırmaları da bu niyyətdən irəli gəlir.

***Ceyhun Piriyev***

# "Azərbaycan məhsullarının görünmə miqyası son 5 ildə 500 dəfə artıb"



***"Azexport" portalına bu vaxta qədər dəyəri 2 mlrd. ABŞ dollarından çox ixrac sifarişləri daxil olub. SİA xəbər verir ki, bu sözləri İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİKTM) beşillik yubileyinə həsr olunmuş mətbuat konfransında İİTKM-in icraçı direktoru Vüsal Qasımlı deyib.***

Mərkəzin icraçı direktoru vurğulayıb ki, Azərbaycan məhsulların görünmə miqyası son beş ildə "Azexport" portalı sayəsində 500 dəfə artıb. O, həmçinin qeyd edib ki, İİTKM yaradıldığı 5 il ərzində 50-yə yaxın strategiya, proqram, fəaliyyət planı, konsepsiya, strateji yol xəritələri, texniki-iqtisadi əsaslandırma və digər sənədlər mərkəz tərəfindən hazırlanıb.

Vüsal Qasımlı, hesabat dövründə "EcoLAB" iqtisadi təhlil laboratoriyası formalaşdırıldığını da diqqətə çatdırıb. Bildirib ki, burada Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı, Avropa İttifaqı və SECO-nun dəstəyi ilə maliyyə proqramlaşdırılması, ümumi tarazlığı, xərclər-buraxılış, ORANİ, mikrosimulyasiya, Xarici Sektorun Qiymətləndirilməsi (EBA-lite) kimi modellər yaradılıb.

***İnam Hacıyev***

# "İnsanlar peyvənd olunmasa..."

***- Bildiyimiz kimi, son günlər virusa yoluxanların və ölənlərin sayı günü-gündən artır. Ölkəmizdəki vəziyyəti necə qiymətləndirirsiniz?***

- Xəstəliyin qarşısını almaq üçün maksimum dərəcədə tədbirlər görülsə də, yoluxma davam edir. Sağalanların sayı yoluxanlardan azdır. Koronavirusa qarşı mübarizə aparmaq üçün peyvənd olunmalıyıq. Azərbaycanda vaksinasiya 2021-ci ilin yanvar ayından başlanılıb. Həmçinin, mənim çalışdığım xəstəxanada da yanvarın 22-dən peyvənd vurulur. İşçilərimizin təxminən, 400 nəfərə yaxını virusa yoluxduğu üçün vaksinasiyada iştirak etmədilər.

***- Bəzi insanlar peyvənddən çəkinirlər. Bunun səbəbi nədir?***

- İnsanlar peyvənddən qorxmamalıdır. Peyvəndin bəzi kateqoriyaya daxil olan insanlar istisna olmaqla, digərlərinə heç bir yan təsiri yoxdur. Məsələn, xroniki xəstələr, güclü allergiyası olanlar, ximya qəbul edən onkoloji xəstələr, hamilə qadınlar və 18 yaşdan aşağı şəxslər üçün peyvənd olunmaq məsləhət deyil. Peyvənddən sonra insan bədənində antitellər əmələ gəlir ki, bu da xəstəliyin yüngül keçməsinə şərait yaradır. Yəni, xəstəlik pnivmaniya vermir, ölüm təhlükəsi olmur. Peyvənd olunmaq o demək deyil ki, siz virusa heç vaxt yoluxmayacaqsınız. Peyvənddən sonra iynə vurulan qolda cüzi ağrı, baş ağrısı, ümumi zəiflik və yüngül tempratur olur. Bu göstəricilər sizin immunitetinizi gücləndirir.

***- Peyvənd proseduru qaydası necədir?***

- İlk növbədə portaldan qeydiyyatdan keçmək, daha sonra isə peyvənd otağına müayinə olunmaq üçün yaxınlaşmaq lazımdır. Xəstənin təzyiqini yoxlamadan peyvənd etmək olmaz. Çünki, yüksək təzyiqli adama vurulmuş peyvənd müəyyən fəsadlara səbəb ola bilər.

***- Gündəlik yoluxma və ölüm hallarının artması insanların öz sağlamlığına etinasız yanaşmağından irəli gəlir?***

- Koronavirus "gözəgörünməz düşmən" adlanır. Onun yoluxmasını zamanında hiss edə bilmirik.



## SİA həkim-infeksionist Xatirə Əliyevanın müsahibəsini təqdim edir:

***- Virusa yoluxduqdan nə qədər vaxt sonra simptomları hiss edə bilərik?***

- Bütün infeksion xəstəliklərdə olduğu kimi koronavirusda da inkubasyon adlanan bir dövr var. Həmin dövr 14 gün müddətindədir. Əgər, sağlam insan koronaviruslu xəstə ilə təmasda olubsa, mütləq 14 gün gözləməlidir. Daha sonra isə burun-boğazdan yaxma üsulu test götürülməlidir.

***- Yoluxma zəncirini qırmaq üçün əhalinin neçə faizi vaksinasiya olunmalıdır?***

- Təxminən 70 faiz insan vaksinasiya olunsa vəziyyət müsbətə doğru gedər.

***- Bəs, koronavirusa yoluxub sağalan insanlar peyvənd olunmalıdır?***

- ÜST-ün bizə verdiyi son məlumatlara əsasən, əgər şəxs 6-7 ay əvvəl virusa yoluxub sağalıbsa onun peyvəndə ehtiyacı yoxdur. Amma, əgər bu şəxslər könüllü olaraq peyvənd olunmaq istəyirlərsə bədəndəki antitellərin miqdarı yoxlanıldıqdan sonra bu mümkündür.

***- Ölkəmizə gətirilən yeni peyvəndlərin fərqi nədir?***

- Bizə peyvənd Türkiyədən göndərilir və bunların yan təsiri demək olar ki yoxdur.

***- Belə bir fikir də səslənir ki, ölkəmizə gələn peyvəndlər iynəyə doldurulub hazır gəlir. Bu haqda nə deyə bilərsiniz?***

- Xeyr, bu yanlışdır. Vaksin ampulanın içərisində gəlir. İynələr isə 0.5 milliqram olmaqla Gigiyena Epidemologiya mərkəzi tərəfindən verilir. Bütün peyvənd prosesi şəxsin gözlərinin önündə icra olunur. Həmçinin, peyvənd 28 gün fasilə ilə 0.5 milliqram olmaqla iki mərhələli olur.

***- Vaksinasiya ödənişlidir?***

- Xeyr, ödənişsizdir. Dövlətimiz tərəfindən bu məsələyə böyük şərait yaradılıb.

***- Deyilir ki, yaydan sonra virusdan tamamilə azad olacağıq. Sizcə bu nə dərəcədə düzgündür?***

- Bunu öncədən demək düzgün deyil. Yoluxma artdıqca müddət də uzanır.

***-Normal həyatımıza nə vaxt dönəcəyik?***

- Məncə kütləvi vaksinasiyadan sonra bu bəla yaxamızdan düşəcək.

***- Peyvənd olunmuş insanlar tibbi maska taxmağa davam edəcək?***

- Maskadan istifadə yaxşıdır. O bizi virusdan qoruyur.

***- Açıq havada maskadan istifadə etmək nə dərəcədə düzgündür?***

- Əslində təmiz havada maskadan istifadə etmək düzgün deyil. Çünki, nəfəs almaq olmur və insanlar oksigen qəbul etməlidir. Yaxşı olardı ki, vaksinasiyadan sonra açıq havada maskasız nəfəs alaq. Qapalı məkanlarda isə bu mütləqdir.

***- Bəzi insanlarda maskadan allergiya yaranıb. Sizcə buna səbəb nədir?***

- Tamamilə razıyam. Maskadan çox istifadə dəriyə də təsir edir.

***- Vaksinlə bir çox xəstəliyin kökünü kəsmək olar?***

- İnşallah ki, olar. Virusa yoluxan insanlar 6 ay müddətində təkrar yoluxa bilməz.

***- Pandemiyanın yaz və yay mövsümündə necə qidalanmaq lazımdır?***

- Daha çox C vitaminli tərəvəz və meyvələrdən istifadə olunmalıdır. Ev yeməklərinə üstünlük verilməlidir.

***- Viruslu insan ev şəraitində necə müalicə oluna bilər?***

- İlk növbədə viruslu insan izolasiya olunaraq, poliklinikaya müracət etməlidir. C, D vitamini zəngin olan qidalarla qidalanmaq lazımdır.

***- Bəzi işbazlar vəziyyətdən istifadə edib dərmanları baha satırlar. Sizcə, bahalı firma dərmanı almaq vacibdir?***

- Xeyr, vacib deyil. Ev şəraitində limonlu su içmək də faydalıdır. Çoxlu maye qəbulu olmalıdır.

***- Koronaviruslu xəstələrin müalicəsi ilə hansı həkimlər məğul olmalıdır?***

- Daha çox infeksionist və pulmonoloq (ağciyər həkimi) və ranimotoloqlar.

***- Xəstəliyin kişi və qadınlarda inkişafı necədir?***

- Kişilərlə nisbətdə qadınlarda yoluxma halı daha çox müşahidə olunur. Lakin, kişilər daha ağır keçirir. Daha çox isə, şəkər, təzyiq, böyrək xəstələri və hamilə xanımlar çox ağır başa vurur.

***- Hamilə xanımlar bətnindəki körpəni virusdan necə qorumalıdır?***

- Uşaqlarda yoluxma halı 99 faiz müşahidə olunmur.

***- Yoluxanlar sırasında gənclər də üstünlük təşkil edir?***

- Təəssüflər olsun ki, bəli. 30-40 yaş aralığı xəstəliyi nisbətən yüngül başa vurur. Lakin 40-65 və 65 üstü insanlar çətin keçirir.

***- Koronavirus "QİÇS", "Sars" kimi təhlükəli xəstəliklərdən daha qorxuludur?***

- Göz gördüyündən qorxar. Koronanın müalicəsində təcrübə olmadığına görə qorxulu hesab olunurdu.

***- 2-3 yaşlı uşaqlarda da yoluxma olur?***

- Bəli, olur. Lakin, onlar bunu qrip formasında başa vururlar.

***- Virusun 3-cü dalğası əvvəlki iki dalğadan nə ilə fərqlənir?***

- 3-cü dalğada zökəm əlamətləri çoxdur. Buna görə də, yoluxma artır.

***- Zəncəfil nanə və limonun suda həll olunub içilməsi faydalıdır?***

- Bu qarışım virusun qarşısını ala bilməz. Sadəcə immuniteti gücləndirə bilər.

***- Ölüm halları daha çox hansı yaş kateqoriyasındadır?***

- Ən çox 50 yaşdan yuxarı insanlarda ölüm halları olur.

***- Yoluxma niyə hələ də artır? Problem nədir?***

- Ən çox yoluxma yas mərasimlərində olur. Buna stress və fikir səbəb olur.

***Ayşən Vəli***

# Rusiyalı ekspert: "Moskva Paşinyandan razı ola bilməz"

**Ermənistanın hərbi əsir adı verdiyi və Azərbaycanda saxlanılan erməni hərbi personalı ilə bağlı məsələ, 10 noyabr tarixli üçtərəfli razılaşmalarla aydınlaşdırılmayan vacib detallardan biridir. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlara istinadən xəbər verir ki, bu sözləri xarici siyasət, müdafiə və təhlükəsizlik sahəsində rusiyalı ekspert Qriqori Trofimçuk tert.am saytına verdiyi müsahibəsində deyib.**

"Hər kəsin bu məsələyə öz baxışı var. İrəvan və Bakının fikirləri bir-birindən fərqlidir, bunların tam əksi olan fikirlər də Rusiyada var. Məhz bu səbəbdən də, Rusiya nümayəndə heyətinin üzvləri, bu insanların "əsir", yoxsa "təxribatçı" olduğunu müəyyənləşdirmək niyyətindədirlər", deyə ekspert qeyd edib.

Onun sözlərinə görə, Moskva, 10 noyabrdan sonra ən sevimli gözlənilməz üslubunda hərəkət etməyə davam edən, sanki 10 noyabrda heç bir əhəmiyyətli sənəd, heç nə olmamışdı kimi davranan Nikol Paşinyanın 10 noyabrdan sonra etdiyi davranışdan tamamilə razı olmaya bilər.

"10 noyabr tarixli sənəd olmasa da belə, onun rəhbərliyi altında Ermənistana çoxlu suallar var idi. Məsəl üçün demək olar ki, Amerika Birləşmiş Ştatları tərəfindən də yox, bilavasitə Pentaqonun özü tərəfindən maliyyələşdirilən Amerika bioloji laboratoriyaları hələ də Ermənistan ərazilərində fəaliyyət göstərir. Üstəlik, bu laboratoriyalar, hətta Ermənistandakı sonsuz sanitar karantinlər fonunda belə fəaliyyət göstərir və COVID-19 ştammlarının təkrarlanmasında iştirak edib-etmədikləri barədə təbii ki, şübhə yaradır. Bu detallar mənfi bir siyasi zəmin yaratmağa qadirdirlər", deyə Qriqori Trofimçuk bəyan eib.



Bu gün bir çox media səhifələrinin yazdığı kimi, ekspert də vurğulayıb ki, "Rusiya nümayəndə heyətinin, Ermənistan tərəfindən məhbus adlandırılanların geri qaytarılması üçün səs verməkdən imtina etməsi Ermənistan sakinlərini hirsləndirib".

"Yəni bu, ilk qəzəb deyil, onsuz da kifayət qədər belə qəzəb var. Xüsusən, bunlar arasında həqiqətən təşkil edilmiş "Muradovun yerinə yetirilməmiş missiyasının qəzəbi" də yer alır. Ancaq ermənilərin, xüsusən də bu yaxınlarda İrəvandakı NATO məlumat mərkəzinin keçmiş rəhbərini döyən ölkənin vətənpərvər vətəndaşlarının əks qəzəbini də bilirik.

***İnam Hacıyev***

***Azərbaycanda qəbul edilən qanunlar, imzalanan Prezident Fərman və sərəncamları insanların daha yaxşı yaşamasına, onların təhlükəsizliyinin təmin olunmasına hesablanıb. Ulu Öndərimiz Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycanda vətəndaş cəmiyyəti, hüquqi dövlət və demokratik siyasi quruluşun bərqərar olması üçün bir sıra vacib tədbirlər həyata keçirilmiş, mühüm sənədlər qəbul edilmiş, öhdəliklərə imza atılmışdır. Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.***

# İnsan hüquq və azadlıqlarının müdafiəsi dövlətin ali məqsədidir

Ulu Öndər demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradıb. Onun rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb. 1995-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanan və ümumxalq səsverməsi yolu ilə qəbul edilən Konstitusiya ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafına, xalqın sosial-rifah halının yaxşılaşmasına, demokratik proseslərin sürətlənməsinə təkan oldu. Ulu Öndərimiz Heydər Əliyev hələ Konstitusiya layihəsinin hazırlanması zamanı demişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplə, əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

## Aparılan siyasətin təməlində İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi dayanır

1996-cı ildə insan hüquqları və azadlıqlarının müdafiəsini təmin etmək, qanunun aliliyini möhkəmləndirmək, bütün hakimiyyət qollarının qarşılıqlı fəaliyyətini gücləndirmək məqsədilə Hüquqi İslahat Komissiyası yaradıldı. Eyni zamanda, "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi Haqqında Avropa Konvensiyası"nın müddəalarına uyğun Azərbaycanda yeni qanunlar hazırlandı. Dahi Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiq olunur. Proqram insan hüquqları sahəsində milli qanunvericiliyin beynəlxalq hüquq öhdəliklərinə uyğunlaşdırılmasını nəzərdə tutur. Belə ki, bu məqsədlə proqram çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilir. Bundan əlavə, ölkəmizin Avropa Şurasına üzvlüyü ərəfəsində qanunvericiliyin Avropa İnsan Hüqüqları Konvensiyası ilə müqayisəli təhlili aparılır.

Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin yürütdüyü siyasi və hüquqi islahatların əsasında da, məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsi dayanır. Bununla bağlı ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsində qanunçuluğun artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üçün genişmiqyaslı tədbirlər görülmüşdür. Belə islahatların məntiqi davamı olaraq dövlət başçısının 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Bu sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Ümummilli Lider Heydər Əliyevin strategiyasına sadiq olan Prezident İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı Sərəncamla "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı təsdiq etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur.



Əlamətdar tarixlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları uzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan hüquqları aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir. Hər bir demokratik cəmiyyətdə insan hüquqlarının qorunması bu sahədə fəaliyyət göstərən təsisatların quruculuğuna, aidiyyəti problemlərin həllinə və zorakılığın qarşısının alınmasına yönəlmiş davamlı bir proses kimi dərk edilir. İnsan hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir çox qanunlar, o cümlədən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunu, Seçki Məcəlləsi, "Sərbəst toplaşmaq azadlığı haqqında", "Siyasi partiyalar haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Dini etiqad azadlığı haqqında", "İnformasiya əldə etmək haqqında", "Məlumat azadlığı haqqında", "Gender bərabərliyinin təminatları haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və digər qanunlar qəbul edilmişdir. Bu aktların mövcud beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Azərbaycanın hakimiyyət orqanları beynəlxalq təşkilatlar, xüsusən, Avropa Şurasının Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və digər nüfuzlu təşkilatlar ilə sıx əməkdaşlıq etmişlər. Göstərilən məcəllə və qanunlar yalnız həmin təşkilatların müsbət rəyi alındıqdan sonra parlamentin müzakirəsinə çıxarılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapan və Milli Məclis tərəfindən qəbul edilən qanunlar, eləcə də Prezidentin imzaladığı sərəncam və fərmanlar Azərbaycanda hüquq və azadlıqların tam təmin olunduğunu göstərir. Bu günlər Respublika Günü münasibəti ilə Prezident İlham Əliyevin azadlıqdan məhrum olunmuş 634 nəfəri əfv etməsi barədə imzaladığı sərəncam insan azadlıqlarına verilən növbəti dəyərin nəticəsidir. Ümumilikdə isə 1995-ci ildən bu günə qədər Azərbaycanda 64 əfv sərəncamı imzalanıb. Məlumata görə, əfv sərəncamları ilə ümumilikdə 7542 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. 2017-ci ildə qəbil edilən Amnistiya aktı ilə 11 min nəfərə şamil olunub. Bütün bu nailiyyətlər Prezident İlham Əliyevin bu istiqamətdə düzgün və məqsədyönlü siyasət aparmasının müsbət bəhrəsidir.

## İnsan hüquq və azadlıqlarına hörmət prinsipi prioritet istiqamət təşkil edir

Birmənalı şəkildə onu demək olar ki, bu gün Azərbaycanda insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsipi prioritet istiqamət təşkil edir. Bunun da kökündə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət və bu siyasətin davamlığının ölkə Prezidenti İlham Əliyev tərəfindən təmin etməsi dayanır. Məhkəmə sisteminin mütərəqqi olmasına, təkmilləşməsinə, müstəqil fəaliyyət göstərməsinə təkan olan qanunvericilik bazasının yaradılması insan haqlarının müdafiəsinə mühüm töhfələr vermiş olur. Hakimlərin müstəqilliyi, siyasətsizləşdirilməsi, toxunulmazlığı və şəxsi təhlükəsizliyi təmin olunur. Prokurorluğun funksiyaları və statusu yeni demokratik şəraitə uyğunlaşdırıldığı hüquqi dövlət quruculuğu və insan hüquq və azadlıqlarının yeri və rolu beynəlxalq standartlara uyğun müəyyənləşdirilib, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun qəbul edilib, "İnsan hüquq və azadlıqlarını təmin və polisin fəaliyyətini tənzim etmək məqsədilə hüquq-mühafizə orqanları sistemində mühüm yer tutan "Polis haqqında" qanun qəbul edilir. Qanuna görə polis ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması, habelə, yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətlərində fəaliyyət göstərir və polisin səlahiyyətləri qanunda dəqiq müəyyən edilir. Polisin fəaliyyəti üzərində nəzarət mexanizmləri təsis edilir, polis əməkdaşlarının qanunsuz hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət etmək hüququ təsbit olunur".

Ekspertlərin gəldiyi qənaətə görə, "İnsan haqları ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı ən önəmli beynəlxalq Konvensiyalardan biri "İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasıdır". "İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası (Avropa İnsan Haqları Konvensiyası, 1950) Avropa Şurası üzvü olan ölkələr üçün əsas normativ-hüquqi aktlardan biridir. Ötən müddət ərzində ölkəmiz insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. Əldə olunan bu kimi uğurlar, nailiyyətlər təbii ki, davamlı xarakter daşıyacaq. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət insanların sağlam, təhlükəsiz, sosial, iqtisadi cəhətdən tam şəkildə təmin olunmasına hesablanıb. Vacib amil isə Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətin, Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir.

***İ.ƏLİYEV***

# Anna Nikolu təhqir edən bütün fəalların həbsini əmr etdi



Nikol Paşinyanın həyat yoldaşı Anna Akobyan Milli Təhlükəsizlik Xidmətinin direktoru Armen Abazyanı çağırıb, aqressiv bir tonda Paşinyanın uğursuz Syunik ziyarətində ona mane olan bütün fəalların həbs olunmasına əmr verib. SİA xəbər verir ki, bu barədə "Dejavyu" teleqram kanalının informasiya yayıb.

Qeyd olunur ki, Milli Təhlükəsizlik Xidmətinin direktoru Armen Abazyan işdən çıxarılacağı ilə də hədələnib və ona, xüsusilə təhqiramiz şəkildə Nikola səslənənlərin həbsi tapşırılıb.

Məlumata görə, Anna Akobyan, ərinin təhqiramiz sözlərlə alçaldılmasına Milli Təhlükəsizlik Xidmətinin (MTX) səssiz dayandığından, itaətkarlıqla izlədiyindən şikayətlənib. Baş nazirin arvadı, MTX hərəkət etmədiyi təqdirdə, bu, Abazyanın son iş günü olacağı ilə onu hədələyib. O, altı ayda 5 MTX direktorunun dəyişdirildiyini xatırladıb və daha birini dəyişdirməyin çox asan olacağına da ehyam vurub.

Anna Akobyan, Milli Təhlükəsizlik Xidmətinin direktoruna bu şəkildə davam edərsə bölgələrdə təbliğat apara bilməyəcəkləri, Qafanlıların coşğusunun digər bölgələrə və hərəkətlərinin onsuz da mürəkkəb olduğu İrəvana köçürülə biləcəyindən şikayətlənib və başqalarına bir dərs vermək üçün onların həbs olunmasını əmr edib.

Diqqətə çatdırılır ki, kanalın məlumatına görə, Abazyanın artıq bu barədə əmrləri var və bu gecə Syunik sakinlərinin kütləvi həbsləri gözlənilir.

***İnam Hacıyev***

# Ermənistandakı vəziyyət: At izi it izinə qarışıb

*Oliqarx modeldən avtoritar idarəetmə sisteminə keçmək istəyən işğalçı ölkənin prezidenti ilə baş naziri arasında davam edən "soyuq savaş" diktatura rejiminə hazırlıqdır*

***Xaos içərisində çabalayan Ermənistanda ara qarışıb, məzhəb itib. Necə deyərlər, at izi it izinə qarışıb. Hakimiyyətə gələn kimi sabiqləri- Robert Koçaryanı və Serj Sarkisyanı çıxdaş edərək onların haqqında araşdırma aparan, keçmiş korrupsioner iqtidarların varidatlarının araşdırılmasını tələb edən Ermənistanın baş naziri Nikol Paşinyanın əmri ilə həbs olunan bu cütlük sonradan azadlığa buraxılsa da, ölkədə qarşıdurma davam edir.***












İkinci Qarabağ müharibəsində məğlub olaraq təslimçilik aktına qol çəkən baş naziri məzəmmət edən bu sabiqlərin hər biri ayrı-ayrılıqda hakimiyyətə qayıtmaq iddialarından da əl çəkimir. Robert Koçaryanın Moskva səfərinin uğursuzluqla nəticələnməsi, Kremlin həbsdən azad etdirdiyi sabiq prezidentə soyuq münasibəti hakimiyyət həvəskarlarından birinin arzusunu ürəyində qoydu. Digər sabiq Serj Sarkisyan isə hələ də Paşinyanı ittiham edir, onu səriştəsizlikdə günahlandırır. Bu həmin Sarkisyandır ki, baş naziri Azərbaycana qarşı "İsgəndər"dən istifadə etmədiyi üçün tənbeh edirdi. Amma Şuşada tapılan "İsgəndər"in qalıqlarından bəlli oldu ki, erməni məkrinin nümunəsi olan bu "ittiham" əslində Ermənistanın və onu "İsgəndər"lə təmin edən havadarlarının əməllərinin üstünü örtmək üçün gediş imiş.

Bütün bunlar Ermənistanda vəziyyətin gərginləşməsinə şərait yaratsa da, ölkədəki siyasi böhran baş nazirin parlamentdəki son çıxışından sonra daha da qəlizləşib. Belə ki, parlamentdə təmsil olunan hakim "Mənim addımım" fraksiyasının təklifinə əsasən seçki məcəlləsində dəyişiklik edilməsi barədəki layihənin müzakirəsi savaş üçün bəhanə olub. Prezident Armen Sarkisyan isə bu dəyişikliyin ölkədəki bütün siyasi partiyaların ümumi rəyini əks etdirmədiyini bildirərək layihəni imzalamaqdan imtina edib. Yəni, məğlub ölkə düçar olduğu böhrandan çıxmadan, ümumi ictimai-siyasi rəy öyrənilmədən növbədənkənar seçkilərin keçirilməsini qəbul etməyən Sarkisyan baş nazirin əlüstü qəbul etdiyi bu seçimlə razılaşmır. Amma məsələ bundadır ki, prezident layihə ilə bağlı 5 gün ərzində konstitusiya məhkəməsinə müraciət etmədiyi halda parlamentin sədrinin imzası ilə irəli sürülən növbədənkənar seçkilərlə bağlı layihə qüvvəyə minəcək. Yəni, əvvəl oliqarxların çubuğu ilə idarə olunan məğlub ölkədə avtoritarlar söz sahibi olacaqlar. Beləliklə, Ermənistanda diktatura rejimi formalaşacaq. Bu isə məğlub ölkədəki idarəolunmaz vəziyyəti daha da gərginləşdirəcək.

Ermənistanda seçkilərin hansı səviyyədə keçirildiyini xatırlamaqla növbədənkənar parlament seçkilərinin baş tutacağı halda ölkədə yaranacaq vəziyyəti təsəvvür etmək o qədər də çətin deyil. Seçkilər ərəfəsində ölkədə adi hal olan antidemokratik şərait, namizədlərə siyasi , fiziki təzyiqlərin, aksiya iştirakçılarına qarşı zorakılıq hallarının artması, mətbuata qoyulan qadağalar, hətta ölümlə nəticələnən işgəncələr unudulmayıb. Qarabağ müharibəsində həlak olanların, itkin düşənlərin valideynlərinin keçirdikləri aksiyaların davam etdiyi, kritik həddə olan sosial problemlərin həllini gözlədiyi bir məqamda prezidentlə baş nazir arasında yaranan ikitirəlik onsuz da dağılmaqda olan ölkənin iqtidarını dalana sıxışdırıb. Buna görə də daim dəstək aldıqları diasporun yardımlarından belə əli üzülən Ermənistanın yeganə çıxış yolu noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatda göstərilən şərtlərə əməl etməsi, Azərbaycanın təkliflərinə razılaşmasıdır.

"Ermənistanda indi tamamilə böhranlı vəziyyət hökm sürür. Mən onların daxili vəziyyəti ilə bağlı hər hansı bir şərh vermək istəməzdim. Prinsip etibarilə biz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmırıq, xüsusilə indiki həssas məqamda. Ancaq müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Noyabrın 10-da imzalanmış Bəyanat icra edilir və tam icra edilməlidir. O Bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilibdir. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış Bəyanat icra ediləcəkdir. Əks-təqdirdə, Ermənistan daha da ağır duruma düşəcək. Yəni, Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar. Biz yeni reallıqlar yaratmışıq" söyləyən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Ermənistanı faşizm ideologiyası ilə idarə edən korrupsioner iqtidarın əsiri olan erməni xalqının ən böyük düşməni elə hakimiyyətdəki rüşvətxorlar, oliqarxlardır. 44 günlük müharibədə məğlub olmuş Ermənistanın bölgədə yaranmış reallığı qəbul edib, yaranmış vəziyyətlə barışmaqdan başqa yolu yoxdur. Bu reallıqla Ermənistanın, eyni zamanda, işğalçını dəstəkləyən ölkələrin də barışmalı olduğunu vurğulayan Prezident İlham Əliyevin bildirdiyi kimi, Ermənistan 10 noyabr Bəyanatının müddəalarını icra etməyə məhkum və məcburdur.

***Xuraman İsmayılqızı***

# Xəyanətkar “diplomatların” əsl üzü - “Vətən üçün pis olan, mənə faydalıdır”

***Millətin milli-mənlik şüurunun formalaşması, mənəvi-siyasi cəhətdən yetişməsi həm də onun vətənpərvərlik səviyyəsi ilə müəyyən edilir. Xalqın yaxın və uzaq keçmişi, elm, mədəniyyət, dövlətçilik, siyasət sahəsində əldə etdiyi nailiyyətlər, qəhrəmanlıq tarixi, eyni zamanda dövlətin müasir inkişaf göstəriciləri gənclərdə vətənpərvərliyi formalaşdıran əsas amillərdir.***

Tarixi gerçəklik budur ki, Azərbaycanlı sabiq diplomatlar bu gün özlərini “müxalifətçi” kimi qələmə versələr də, əslində Vətəni xaricdə “gözəl həyata” dəyişən cinayatkar xəyanətkarlardır. Bli, cinayatkar xəyanatkarlardır. Bu gün onlar sosial şəbəkələrdə fəalıq etməklə, ictimaiyyətə özlərini guya ədalətsizlik və korrupsiyaya qarşı istefa verərək Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) “yüksək vəzifəli məmurları” kimi təqdim etməyə çalışırlar. Əslində isə bu insanlar bir zamanlar XİN-dən obyektiv səbəblərə görə vəzifədən uzaqlaşdırılıblar.

Hazırda Azərbaycan hökumətini aktiv şəkildə “tənqid” edənlər bir zamanlar Azərbaycan XİN-in əməkdaşları olmuş - Arif Məmədov, Nahid Cəfərov, Vidadi İskəndərli, Sevinc Osmanqızı və bu kimi ünsürlərdir. Ancaq öu satqın “diplomatların” əsl üzünü aşkara çıxaran faktları araşdırdıqda, onların əsl üzünün aşkara çıxdığının şahidi olursan.

### Sevinc Osmanqızı - ata qatili ermənilərin müdafiəçisi

Əxdaqsızlıq buna deyərlər. Bəli, mənim fikrimcə, bir övlad ki, atasının qatili olan erməniləri, daha doğrusu pullarına sataraq düşmən təbliğatı aparırsa...elə əsl əxlaqsızdır. Ancaq bu o Sevinc Osmanqızıdır ki, “məşhur jurnalist” kimi tanınmasında elə o ata olub - Osman Mirzəyev. Bir müddət Azərbayxan XİN-də də işləyən S.Osmanqızı 90-cı illərin əvvəlində “ASSA İrada” informasiya agetliyində, daha sonra AzTV-də işləsə də, atası - jurnalist Osman Mirzəyevin adından istifadə edərək Xarici İşlər Nazirliyində işləmək üçün müraciət edir.

### Yalan, böhtan yolun yolçusu...

Minbir oyunçusu S.Osmanqızı işə düzəlmək üçün adət etdiyi fırıldağa əl atır, deyir ki, “ermənilərlə mübarizə aparmaq” istəyir. Lakin daha sonra aydınlaşır ki, o, XİN-də xaricə getmək üçün işləmək istəyir. Və bu fırıldaq yolla 1994-cü ilin aprelində Misirə ezam olunmağa icazə istəyir. Qahirədə “Şeraton” otelində 800 ABŞ dolları həcmində telefonla danışan Osmanqızı otel işçilərini heyrətə gətirir. Belə ki, oteli tərk edən zaman resepşının təqdim etdiyi hesabı ödəyə bilmir. Nəticədə bu hesab bütün diplomatik heyət üçün ayrılmış xərclərdən ödənilməli olur. Çıxış yolunu həyəsizlıqda görən Osmanqızı guya Bakıya zəng edərək Azərbaycan nümayəndə heyətini səfəri barədə xəbər verdiyini bildirir. Və müəyyən olunur ki, S.Osmanqızının telefon danışıqları şəxsi xarakter daşıyıb. Və ezamiyyətdən qayıtdıqdan sonra bu fakt atasının ruhu xatirinə bağışlanılır. Ancaq S.Osmanqızı “çoxlu pullar” əldə etmək üçün Londondakı Bi-Bi-Si xidmətinə işə düzəlir və bununla da

S.Osmanqızı üçün “müqəddəs” heç bir şey yoxdur - nə Vətən, nə ata, nə mənəviyyat, nə əxlaq...

### “Müqəddəs” Arif Məmmədov



### özünü “müqəddəsliyinə və günahsızlığına” inandırmağa çalışır, amma...

2015-ci ildən özünü hazırki Azərbaycan hökumətinin əsas opponenti, Qərbdə Azərbaycan müxalifətinin çarçısı kimi qələmə verən Arif Məmmədov, özü və fəaliyyəti haqqında danışarkən ictimaiyyətə “müqəddəsliyinə və günahsızlığına” inandırmağa çalışır. Lakin bu “müqəddəsin” həyatını araşdırarkən bir sıra faktların üzə çıxması ilə məlum oldu ki, “Müqəddəs Arif” daha çox şeytana bənzəyir. Əldə etdiyimiz faktlara əsasən, onun babası, sovetlər dönəmində Gəncədə korrupsiyaçı və rüşvətxor kimi tanınan Qara Camal görünür hüquq-mühafizə orqanlarından qorxduğu üçün nəvəsini prokuror görmək istəyib. Lakin bütün səylərə baxmayaraq Arifi Bakıda hüquq fakultəsinə düzəldə bilmir. Tələbə yoldaşlarının sözünə görə, babası onu Moskvada “yollar” taparaq 30 000 sovet rublu (o dönəmlər üçün yüksək məbləğ) SSRİ-nin Müdafiə Nazirliyinin Qırmızı bayraq Hərbi İnstitutuna düzəldir. Elə ilk gündən bu əyriliyin yolllarının yolçusu kimi cildən-cilə girərərk 1995-ci ildə Azərbaycanın Belçikada açılmış Səfirliyinə ikinci katib kimi işləyən çoxdankı arzusu - Avropa həyatına başlayıb. Görünüdüyü kimi, sapı özümüzdən olan bu çürük saplı baltalar, o cümlədən Arif Məmmədov Azərbaycan hökuməti və parlamentarilərinin ünvanına təhqirlər yağdırır, radikal islamçı Taleh Bağırovun müdafiəsinə qalxır, radikal müxalifətçilər - Əli Kərimli və Cəmil Həsənlini yaxın dostu hesab edir. Lakin bir zamanlar həmin Məmmədov iclaslarda çıxışı zamanı onları açıq şəkildə qınayıb və avropalı diplamatlar qarşısında ifşa etdiyindən qürurlanırmış. Çünki Arif Məmmədov kimilər üçün tək müqəddəs - puldur. Və Azərbaycana nifrət edən bu şəxslərin əsl üzü budur - “Vətən üçün pis olan, mənə faydalıdır”. Onlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fəraridən başqa biri deyil.

Çünki Vətən təəssübü, yurd sevgisindən məhrum olan bu başıpozuq dəstənin üzvlərinin sosial şəbəkələrdəki ölkəmizin əleyhinə olan çıxışları onların savadsız, kütbeyin, intellektsiz, dar dünyagörüşə, xəyanətkar xislətə, idraksızlığa malik olduqlarına dəlalət edir. Təfəkkür olmadığı təqdirdə insan dəryada istiqamətini itirmiş gəmi kimidir. Bu torpağın suyunu içib, çörəyini yeyən, sonra da ona qarşı xəyanət yolunu tutan bu mühacir müxalifət qaragüruhunda zərrə qədər idrak, Vətənə məhəbbət olsaydı onlar xeyiri şərə dəyişməz, məskunlaşdıqları ölkələrdə xüsusi xidmət orqanların və anti-Azərbaycan dairələrin toruna düşməzdilər. Dünya erməniliyinə xidmət edən bu antimilli ünsürlər bunun əksini edirlər. Bütün milli-mənəvi dəyərlərə, əxlaqi-insani keyfiyyətlərə zidd hərəkətlərə yol verərək internet TV-lərdə ermənipərəst dairələrin sifarişlərinə uyğun olaraq Azərbaycanın əleyhinə şər-böhtan kampaniyası aparır, sağa-sola təhqir və söyüş püskürürlər. Buna görə də bu gün cəmiyyətimiz, hər bir Azərbaycan vətəndaşı erməni lobbissi ilə çiyin-çiyinə verərək eyni cəbhədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan, onun beynəlxalq imicinə ləkə yaxmaq üçün dəridən-qabıqdan çıxan, erməni fondlarının maliyyələşdirdiyi satılmış, xəyanətkar və mənfur mühacir müxalifətə qarşı prinsipial və güzəştsiz olmalıdır.

***Rəfiqə HÜSEYNOVA***

# Düşmənlərimizə qahmar çıxan antimilli ünsürlər

30 ilə yaxın müddətdə anti-Azərbaycan qüvvələrlə işbirliyinə girərək düşmən dəyirmanına su tökən dağıdıcı müxalifətin başbilənləri-AXCP sədri Əli Kərimli, “Milli Şura”nın rəhbəri Cəmil Həsənli və onların ətrafındakılar bu gün də Azərbaycana qarşı düşmənçilik mövqeyi nümayiş etdirərək dünya erməniliyi ilə eyni cəbhədə yer alırlar. 44 günlük Vətən müharibəsindəki tarixi Qələbəmiz, Azərbaycan hökumətinin işğaldan azad edilmiş ərazilərdə başladığı bərpa-quruculuq işlərini sürətləndirməsi, soydaşlarımızın 30 illik düşmən işğalından azad edilmiş torpaqlara qaytarılması istiqamətində görülən işlər, ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi, dövlətimizin başçısının xalq arasında inam və etibarının gündən-günə güclənməsi, reytinqinin yüksəlməsi, deyəsən, bu antimilli dəstənin yuxusunu ərşə çəkib.

Başda Ə.Kərimli olmaqla dağıdıcı müxalifətdə təmsil olunanlar bu günə qədər işğalçı Ermənistanın hərbi cinayətləri ilə bağlı bir kəlmə də olsun danışmayıblar. Bu satqınlar düşmən ölkənin minalı ərazilərin xəritəsini hələ də Azərbaycana təqdim etməkdən boyun qaçırması ilə bağlı cınqırlarını belə çıxarmayıblar. Axı onlar yaxşı anlayırlar ki, bu minalar Azərbaycanın hərbçiləri və mülki şəxsləri arasında çox ciddi itkilərə səbəb olur. Ermənilər tərəfindən basdırılan minalar münaqişədən sonrakı dövrdə mülki şəxslərin həyatı, təhlükəsizliyi və yaşayış imkanları üçün çox ciddi təhdiddir. Hazırda işğaldan azad edilmiş ərazilərin kütləvi minalanması Azərbaycanın həyata keçirdiyi bərpa və yenidənqurma işlərinə ciddi əngəl yaradır.



Azərbaycan dəfələrlə beynəlxalq ictimaiyyəti Ermənistan tərəfindən basdırılan minaların insanların həyatını itirməsinə səbəb olması faktını qınamağa çağırıb. Belə olan halda görəsən, niyə dağıdıcı müxalifətin başbilənləri, AXCP sədri Əli Kərimli, “Milli Şura”nın rəhbəri Cəmil Həsənli və onların tör-töküntüləri bu məsələlər ilə bağlı ağızlarına su alıb durur, bir dəfə də olsun etiraz səslərini ucaltmırlar? Bu xəyanətkarların bu günlərdə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın Ermənistana səfəri çərçivəsində özünü “xarici işlər naziri” kimi qələmə verən, qanunsuz rejimin nümayəndəsi David Babayan ilə görüşünə də münasibət bildirməmələri, bütün bunları görməzdən gələrək susqunluqla qarşılamaları da əslində çox mətləblərdən xəbər verir.

Dağıdıcı müxalifətin dəstəbaşıları özləri də yaxşı bilirlər ki, təcavüzkar Ermənistanın hərbi cinayətləri yalnız bunlarla da bitmir. İşğalçı ölkə regionda uzunmüddətli sülhə və təhlükəsizliyə nail olmaq baxımından mühüm əhəmiyyət kəsb edən, 2020-ci il noyabrın 10-da Rusiya Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatın şərtlərini kobud şəkildə pozur və Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazisinə gizli şəkildə hərbçilər, daha doğrusu, terrorçular göndərir. Belə ki, döyüş əməliyyatları başa çatdıqdan sonra Ermənistanın Şirak vilayətindən, Gümrü şəhərindən və ətraf rayonlardan tərkibi 60 nəfərdən çox olan dəstələr Laçın dəhlizi vasitəsi ilə Azərbaycan Ordusunun nəzarət etdiyi ərazilərə göndərilib. Bu təxribatçı dəstə Azərbaycan hərbçilərinə və dinc əhaliyə qarşı terror aktları törədiblər. Ə.Kərimli, C. Həsənli, G. Hacıbəyli və bu kimi nadürüst xainlər bu günə qədər bu məsələlərlə bağlı beynəlxalq ictimaiyyətə bir dəfə də olsun müraciət etməyiblər. Cəmiyyətimiz bu dağıdıcı, pozucu, xəyanətkar zümrənin Azərbaycanın qələbəsi ilə başa çatan 44 günlük müharibədən sonra milli maraqlarımıza xidmət edən mövqeyinə, bir çıxışına və bəyanatına heç rast gəlməyib. Əksinə, onlar öz çirkin məqsədlərini həyata keçirmək üçün erməni lobbisi ilə işbirliyinə girərək şəxsi maraqları və ambisiyaları naminə milli maraq və mənafelərimizə qarşı zidd əməllərini bu gün də davam etdirirlər. Antimilli ünsürlər tarixi Zəfərimizə kölgə salmaq, milli birliyimizə xələl gətirmək, cəmiyyəti çaşdırmaq, insanlar arasında etimadsızlıq, ümidsizlik, ruh düşkünlüyü yaratmaq üçün dəridən-qabıqdan çıxaraq xəyanətkar fəaliyyətlərinin miqyasını gündən-günə genişləndirirlər. Satqın, şərəf və ləyaqətini itirən məlum antimilli qüvvələr bu gün hətta Rusiya Federasiyası Dövlət Dumasının ermənipərəst və anti-Azərbaycan fikirləri ilə tanınan deputatı Vitali Milonov və erməni lobbisi ilə, eləcə də Ermənistan mətbuatında ölkəmizin əleyhinə yazılanlarla həmrəy olduqlarını nümayiş etdirməkdən, Hərbi Qənimətlər Parkı ilə bağlı düşmənlərimizin söylədiklərinə qahmar çıxmaqdan belə çəkinmirlər. Daha nə deyəsən? Beləleri haqqında dahi M.Ə. Sabir hələ yüz il bundan əvvəl belə deyib: “Kim nə deyər bizdə olan qeyrətə?! Qeyrətimiz bəllidir hər millətə!”...

***Zahid Rza***

# Leonid Kalaşnikov: “Qarabağa status iddiası tam cəfəngiyyatdır”

Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmyerlilərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov Moskva-Bakı platformasına müsahibəsində, ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ nizamlanması və post-münaqişə dövründə Ermənistanın və Azərbaycan arasında sülhün bərqərar olmasında konstruktiv rol oynayacağına dair fikirlərinə münasibət bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Leonid İvanoviç, indi ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olmasının gələcək prosesindəki rolu mövzusu yenidən müzakirə edilməyə başlandı. Həmsədrlərin Qarabağ münaqişəsinin həlli məsələsini sona çatdıra bilmədiklərini bilirik. 2-ci Qarabağ müharibəsindən sonra bir çoxları bunun təsirsizliyini elan etdilər, baxmayaraq ki, bunun münaqişənin həlli üçün müəyyən sənəd bazası yaratdığını inkar etmədilər. İndi də Azərbaycan sual verir- vasitəçilər bu gün sülh yaratmaq üçün nə təklif edə bilər? Sizcə, həmsədrlər indi hansısa konkret tapşırıqları həll edə biləcəklər, yoxsa mümkün deyil?**

- Minsk qrupunun hər şeyə qadir olub-olmadığı sualının ifadəsi çox düzgündür. Həmişə demişəm ki, bu əlaqə qrupu faydalılığını itirdi. Mövcud olduğu 30 ilə yaxındır ki, heç bir şey etməyib özünü nüfuzdan saldı. Minsk qrupu Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olması şəraitində işləyə bilərmi? Rusiya münaqişənin həllində və iki dövlət arasında dinc bir həyat qurulmasında real nəticələr əldə etməyi bacaran yeganə həmsədr ölkədir. Xüsusilə bölgədəki nəqliyyat və iqtisadi əlaqələrin qarşısını almaq, region ölkələrinin bu istiqamətdə qarşılıqlı fəaliyyətinə dair konkret təkliflər verdi. Nə Fransa, nə də ABŞ-dan belə bir şey eşitməmişəm.

Minsk Qrupu bir növ artıq mexanizmə çevrildi ki, bu formatdan uzaqlaşaq. Yenə deyirəm: illər ərzində nəinki bir iş gördü, Qarabağ nizamlanması məsələsini də örtbasdır etdi. Qarabağ məsələsini yalnız 3 regional dövlətin - Rusiya, Azərbaycan və Ermənistanın həll edə biləcəyini dedikdə, siyasətçilərimiz cavab olaraq bunun necə olacağını soruşurdular- çünki ABŞ-ın həmsədr kimi bu qərarları tanımadığını, Fransanın da tanımadığını bildirdilər. Problem həll edildi. İndi prosesin Minsk Qrupunun həmsədrlərinə verilməsi yalnız regional olmayan, həmişə eyni məsafədə olmayan və yolu azdırmaq istəyənləri məmnun edə bilər ...

Məsələn, Ukrayna. Bununla razılaşdıq. Minsk formatı var. Ancaq Minsk razılaşmalarını pozmaq istəyən deyir: yox, yox, yox, gəlin Amerikanı da buraya daxil edək. Əvvəllər Amerika və Fransa Qarabağ məsələsində iştirak edirdilər. Nə olsun? Keçən il münaqişənin həllinə dair bir sənəd əldə etdikdən sonra Qərb narazılığını bildirdi. Rusiya, Azərbaycan və Ermənistan liderləri problemin həllində



razılığa gəldilər, bu həll prosesini Minsk Qrupuna verməyə deyil, onlar özləri bu prosesi idarə edə bilirlər. Yenidən Minsk Qrupunu prosesə sürükləməyə çalışsaq, qorxuram ki, mənfi tərəfə dəyişiklik etməkdən başqa bir şey etməyəcəyik. Ziddiyyətlər üzərində oynamağa başlayacaqlar, bu və ya digər qeydlərlə birlikdə tamamilə qeyri-real olan bəzi təklifləri oynamağa başlayacaqlar və bu, vəziyyəti, təxminən 30 ildir olduğu kimi dalana dirəyəcəklər.

**- Azərbaycanın mövqeyi budur ki, münaqişə bitdi və əslində, Minsk qrupu qərar verməlidir (bəlkə də, azərbaycanlılar və ermənilər arasında yaxınlaşma təklifi istisna olmaqla) ... Ermənistan, əksinə, deyir ki, münaqişə hələ həll edilməyib və bütün məsələləri Minsk formatı çərçivəsində həll edək ...**

- Minsk təmas qrupu, zərərdən başqa heç bir şey etməyəcək. Həqiqət budur ki, həmsədr olaraq Amerika və müttəfiqi Fransa bu nizamlanmaya Rusiyadan tamamilə fərqli baxırlar. Nə ABŞ, nə də Fransa Rusiyanın sərhədlərindəki münaqişəni həll etməkdə kömək etməkdə maraqlı deyil. Obyektiv olaraq niyə bizə kömək etməlidirlər, xüsusən də, Rusiya ilə düşmənçiliyin necə artdığını gördük. Niyə Rusiyaya kömək etsinlər, Azərbaycana niyə kömək etsinlər ... Bu mövqeyi vaxtaşırı AŞPA-da, Avropa İttifaqında görürəm ... Hər hansı bir dinləmədə - Rusiya haqqında, eləcə də - Türkiyə və Azərbaycan haqqında.

Kömək etmək istəmirlər. Sadalanan ölkələrdə bir növ “problem” görmələri, bütün bunları “demokratik hüquqların pozulması” adı altında müzakirə etmələri daha yaxşıdır ... Seçki üçün Azərbaycana necə getdiyimi xatırlayıram. Hər şey yaxşı getdi. Ancaq sonra ATƏT missiyası qəfildən yazır ki, yox, seçkilər qeyri-demokratik keçib. Avropa İttifaqının təmsilçilərindən olan yoldaşlarımdan soruşuram: “Bunu niyə yazırsan?” Axı dünən mənə heç bir qanun pozuntusu olmadığını, hər şeyin yaxşı olduğunu söylədiniz. ... Görürsünüzmü, geosiyasi müstəvidə ATƏT, AŞPA kimi təşkilatlar, bu cür təmas qrupları çərçivəsində hər şeyin relsdən çıxması ilə nəticələnir. .

Məsələni həll edə bilən həqiqi bir qrup gördük - bunlar 3 ölkənin lideridir, bunlar ölkələrin baş nazir müavinləridir. Problemi həll etməyə davam etmelidirlər. Vladimir Putinin həm Azərbaycanda, həm də Ermənistanda nüfuzu var. Sülh prosesinə xələl gətirmək istəmiriksə, başqa heç kim buraya qarışa bilməz. Çünki özlərini həmsədr adlandıran bu ölkələrin çox fərqli maraqları var. Bölgə daxil olmaqla.

**- Bu yaxınlarda ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent Rusiyanın Qarabağ münaqişəsini həll etmək üçün deyil, qoruyub saxlamağa çalışdığını söylədi. Qərbin Rusiyanın vasitəçiliyi ilə keçən ilin noyabrında Qarabağla bağlı üçtərəfli bir bəyanat əldə etməsi ilə əlaqədar Rusiyaya qarşı iddialarını necə ifadə etdiyini yaxşı xatırlayırıq ...**

- Gözlərindən toz tökmək istəyirlər. 30 ilə yaxındır hamını yaxınlaşdırmağa çalışdıq. Qarışıq və çaşqın idilər və indi hər şeyə qərar verildikdən sonra yenidən hər şeyi qarışdırmağa, problemin həllinə kömək edən tərəfə böhtan atmağa başladılar - deyirlər, Rusiya hamını aldadıb. Necə deyərlər- oğrunun papağı yanır. Rusiya heç nə etməli deyil, bunlar isə necəsə kimisə itələyib hərbi bazalarını hər yerdə yaratmalıdırlar? Buna görə də elə deyirlər, çünki Dövlət Departamenti bunu özü üçün arzulayır. Dünyada bir neçə yüz hərbi bazaları var. Problemlərini belə həll etməyə o qədər öyrəşiblər. Artıq Rusiyanın xarici ərazilərdə hərbi bazalara ehtiyacı yoxdur. Bəli, həqiqətən. Bu səbəbdən onları həll proseslərinə sürükləmək olmaz. BIz üçlükdə razılaşdıq - üçümüz də bu fincanı axıra qədər içməliyik. Bəzən çox xoş olmasa da.

Münaqişə bitdi və indi imzalanan bütün müqavilələrin bütün regionun sakinləri üçün böyük bir üstünlük olduğunu başa düşməliyik. Bu, Qarabağda yaşayanlar və yaşayacaqlar üçün bir üstünlük olacaq, Ermənistan üçün bu bir divident olacaq, çünki onilliklər boyu mühasirədə qalmışdı - Türkiyə ilə, Azərbaycanla sərhədləri qapalı idi, tranzit dəhlizlərindən qopmuşdu. Yəni vəziyyətin, ilk növbədə, mülki şəxslər üçün dəyişdiyini və yalnız müsbət istiqamətdə dəyişdiyini göstərmək lazımdır. İnfrastruktur qurmalı, ölkələri nəqliyyat dəhlizləri ilə əlaqələndirməli və həyatı daha da yaxşılaşdırmalıyıq. Ancaq bəzi insanlar istəmir. Və prosesə müdaxilə edirlər, təxribat xarakterli bəyanatlarla onu pozmağa çalışırlar. Regionda yaşayan insanlara bir il, iki, üç il əvvəl pis yaşadığımızı, maaşımızın az olduğunu, ora gedə bilmədiyimizi, mal gətirə bilmədiyimizi, bunun onlar üçün sərfəli olmadığını, amma indi bunu edə biləcəyimizi, özümüzü təmin edəcəyimizi, işimizin olacağını, mallarımızı qonşu ölkələrə sata biləcəyimizi deməliyik. Bunun nəyi pisdir? Bütün insanlar deyəcəklər: bu, əladır, yaxşıdır. Ancaq bəzi insanlar bunu istəmir, fərqli bir status qorumaq istəyirlər.

**- Xülasə etsək, məntiq budur ki, əvvəlcə iki üçtərəfli bəyanatda qeyd olunan bütün məsələlər həll olunur, ermənilərlə azərbaycanlılar arasında məişət səviyyəsindəki münasibətlər bərpa olunur, Rusiya hansısa müddətdən sonra bu gün həll olunmayan digər məsələlərin də həllinə kömək edir.**

- Problemlər çətinlik dərəcəsinə görə tədricən həll ediləcəkdir. Və ən kəskini, düşünürəm ki, bu gün göründüyü kimi iqtisadi, nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılması məsələləridir. İqtisadi məsələləri bütün tərəflər üçün fayda ilə həll edəcəyik və buna davam edəcəyik. Razılaşdıq - bu müqavilələrə uyğun hərəkət etməliyik. İlham Əliyev, ona haqqını verməliyik, həmişə tamamilə ləyaqətli bir insan olub, əgər bir şeylə razılaşıbsa, bu razılaşmalara mütləq əməl edir. Heç vaxt özündən qabağa getmir, heç vaxt geriyə baxmır və məsələləri konstruktiv həll edir. Ona görə də ona qarşı hər yerdə belə bir münasibət var. Görürəm ki, Putinin də ona qarşı belə bir münasibəti var.

**- Ancaq obyektiv olaraq nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılması həqiqətən hər kəs üçün faydalıdır, kim nə desə də...**

- Əlbəttə ki, hər kəs üçün faydalıdır. Əliyev bu barədə tamamilə haqlı idi. Cənubi Qafqazda sülhün bərqərar olmasından faydalanmayan hər kəs “səhv bir şey” tapmağa çalışır. İndi bəziləri (əvvəllər vaxtları olmadıqları üçün) Qarabağın statusu məsələsini nəqliyyat və iqtisadi əlaqələrin açılması ilə əlaqələndirməyə çalışırlar, deyirlər: yox, status məsələsini həll etməyincə onu açmayacağıq. Bu tamamilə axmaqlıq və cəfəngiyyatdır. Qarabağ məsələsi bu qədər sərt şəkildə ona görə həll edilmədi ki, onu sonra dalana dirəyəsən. Niyə məsələni tamamilə həll olunmayan bir kanala sövq etməliyik. Ancaq təəssüf ki, bəzi beynəlxalq tərəflər bu cür ritorikanı təşviq edirlər.

*Dumanın Komitə sədri: “İlham Əliyev həmişə tamamilə ləyaqətli bir insan olub, əgər bir şeylə razılaşıbsa, o razılaşmaya mütləq əməl edir”*

***Müsahibə aldı - Nana Xoştariya***
***Tərcümə etdi - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS
Son səhifə
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
22 aprel

# "Liverpul"un sahibi Kloppdan və azarkeşlərdən üzr istədi



*"Liverpul"un sahibi Con Henri Avropa Superliqasından imtina etmələrindən sonra azarkeşlərə müraciət edib. İngilis klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, o, sözügedən layihəyə dəstək verdikləri üçün baş məşqçi Yurgen Klopp və azarkeşlərdən üzr istəyib:*

"Son iki sutkadakı nigaranlıqlarına görə bütün azarkeşlərdən üzr istəyirəm. Superliqa azarkeşlərin dəstəyi olmadan mümkün olmazdı. İngiltərədə heç kim başqa cür düşünmür. Bunu çox açıq şəkildə nümayiş etdirdiniz və mən sizi eşitdim.

Yurgen Klopp, futbolçular, klubda çalışan hər kəsdən üzr istəyirəm. Onların baş verənlərlə heç bir əlaqələri yoxdur. Ancaq ən çox narahat olan da onlar idi. Bunu dərk etmək məni incidir. Hər şeyə görə cavabdeh mənəm. Ümid edirəm ki, səhv etdiyimiz zaman da klubumuzun mənafeyi naminə çalışdığımızı anlayırsınız".

# Ailə qurmağın kariyeraya təsiri



"Ailəsinə hədsiz bağlı olan qadınların iş həyatında müəyyən qədər zəiflik olur. Ailədə həm qadının, həm də kişinin işləməsində bir sıra fərqlər var". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib. Onun sözlərinə görə, iş həyatında ailəyə daha çox üstünlük verən tərəf qadındır: "Kişilər qadınlarla müqayisədə işə çox üstünlük verir. Lakin, kişi və qadın birlikdə olduqda əsasən ailə haqqında düşünürlər".

Psixoloq onu da qeyd edib ki, işləyən qadınlar daha baxımlı və özgüvənli olur: "Kişilər özgüvənli və baxımlı qadınları sevir. Lakin, bəylərin özgüvəni o qədər aşağıdır ki, düşünürlər ki, çalışan və baxımlı qadın ona xəyanət edə bilər. Beləliklə, ortaya güvənsizlik problemi çıxır. Amma unutmamalıyıq ki, ailə və işi eyni anda yaxşı idarə edən insanlar da var".

Vüsalə Əmiraslanova son olaraq onu deyib ki, əgər, işdə zəiflik varsa, ailəni bir müddətlik kənara alıb işin üzərinə daha çox düşmək lazımdır. Çünki, ailə insanın ən böyük dəstəkçisidir və həmişə yanındadır. Amma, işsiz qalsaq bu bir çox problemlərə səbəb olacaq".

***Ayşən***

# Saçlar da qocalırmı?- Saçınızın köhnəldiyini göstərən 7 amil



***Yaşlanma dedikdə ağıla ilk gələn qırışlar və quru dəridir. Bəs saçlar? Sizcə saçlarınız qocalmır? SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, illər keçdikcə saçlarınız bir çox prosedurlara məruz qalır. Beləliklə, nazikləşir və azalır. Bütün bunlara qarşı tədbir görmək lazımdır.***

**Ağ tellər**

Buna səbəb olan bir neçə amil var. Ümumi səbəb əlbəttə ki, genetikadır. Həmçinin, stres, zərərli pəhriz, ağır həyat tərzi, yuxu çatışmazlığı və ciddi xəstəliklər də saç ağarmasına səbəb ola bilər. Müəyyən bir yaşdan sonra melanin istehsalının olmaması səbəbindən də saçlar ağarır, bu isə zülalsız saçlar deməkdir.

**Nazikləşmə**

Saçların yaşlanmasında görülən dəyişikliklərdən biri də, incəlmədir. Bunun bir neçə səbəbi var. Birincisi, saçın sıxlığı azalır. İkincisi isə, saç nazik telli uzanır.

**Həcmini itirir**

Bu vəziyyət seyrək saçlarda olur. Səbəbi isə saçlara həddindən artıq dəyişiklik etməkdir. Çünki, qadınlar özünü yaşlanmış hiss etdikdə saçlarını tez-tez dəyişir. Bu, kutikulu məhv edir, saçı zədələyir, solğun və qırılmağa meylli edir.

**Daha asan qırılır**

Zülal itkisi yalnız saç rənginə deyil, gücünə də təsir edir. Keratin protein səviyyəsində azalma saçları daha zəif və daha az elastik edir.

**Saçlar solğun olur və matlaşır**

Xarici zərərli və stres kimi amillərdən təsirlənən saçlar illər keçdikcə enerjisini itirməyə başlayaraq, sönük görüntü alır. Bunun qarşısını almaq üçün antioksidan və qoruyucu xüsusiyyətləri olan məhsulları seçib saçlara vitamin əlavə edə bilərsiniz.

**Tökülmə**

Baş dərisi zaman keçdikcə təbii yağ istehsal etməkdə çətinlik çəkir və quruluğa, həssaslığa daha çox meylli olur. Bu, saç keyfiyyətinin pisləşməsinə və tökülməsinə səbəb olur. Saç dərinizi gücləndirərək köklərini daha təsirli bir şəkildə qidalandıra, saç quruluşunuzu yaxşılaşdırmaq və saç tökülməsini yavaşlatmaq olar.

***A. Vəli***

# Bakıda xadimə evdən külli miqdarda pul oğurladı



Yasamal rayonu ərazisindəki evlərin birindən pul oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini S.Quliyeva saxlanılıb.

Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Yasamal RPİ 29-cu PŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 20-də rayon ərazisindəki evlərin birindən 23000 manat pul və 15000 ABŞ dolları oğurlamaqda şübhəli bilinən həmin evdə xadimə işləyən Bakı şəhər sakini S.Quliyeva saxlanılıb.

# Quldurluq üstündə tutuldu



Bakı şəhər sakini Ə.Mustafayevi bıçaqla hədələyib pulunu quldurluq yolu ilə almaqda şübhəli bilinən S.Nəsirli saxlanılıb.

Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Nizami RPİ 24-cü PŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 19-da C.Naxçıvanski küçəsində Bakı şəhər sakini Ə.Mustafayevi bıçaqla hədələyib. Belə ki, 45 manat pulunu quldurluq yolu ilə almaqda şübhəli bilinən paytaxt sakini S.Nəsirli saxlanılıb.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600